RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 256 (9135) CÜMƏ AXŞAMI, 24 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV Avropada ən populyar şəxsdir



◆ **Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri**

## Belqradın "Nikola Tesla" Hava Limanında qarşılanma



**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasına rəsmi səfər edib.**

AZƏRTAC xəbər verir ki, Belqrad şəhərinin "Nikola Tesla" Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşıladı.

"Dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada bilmirəm, o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim".

***Aleksandar VUÇIÇ, Serbiya Prezidenti***
*1 oktyabr 2022-ci il, Sofiya*

"Prezident Əliyev etibarlı tərəfdaşdır. Onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm. Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Mən, həqiqətən, şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib. Ölkəmizin təhlükəsizliyini təmin edəcəyik, ən azı cənab Əliyevin Azərbaycan üçün etdiklərinin yarısını edəcəyik".

***Aleksandar VUÇIÇ, Serbiya Prezidenti***
*23 noyabr 2022-ci il, Belqrad*

Avropa liderlərinin təmsil olunduğu məclisdə, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycan Prezidenti İlham Əliyevə xitabən səsləndirdiyi məlum etiraf böyük əks-səda doğurdu. Bu, İlham Əliyevin qlobal liderliyinin Serbiya Prezidentnin timsalında məhz Avropa məkanında növbəti etirafı idi.

Dünən isə İlham Əliyev onun liderliyinə həsəd aparan və nüfuzunu yüksək qiymətləndirən Prezidenti və onun dövlətini ziyarət etdi.

Bu dəfə də Serbiya Prezidenti azərbaycanlı həmkarının beynəlxalq miqyasda nüfuzunu, imicini çox yüksək qiymətləndirərək İlham Əliyevi sevilən, qəbul olunan lider kimi təqdim etdi.

→ 4

## Rəsmi qarşılanma mərasimi



→ 2

## Təkbətək görüş



→ 2

## Geniş tərkibdə görüş



→ 2

## Azərbaycan-Serbiya sənədləri imzalanıb



→ 3

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər



→ 3

## Belqradda Ümummilli Lider Heydər Əliyevin və Milorad Paviçin abidələrini ziyarət



→ 4

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri başa çatıb



→ 4

## Sürətli məskunlaşmaya aparan ikiillik uğurlu fəaliyyət

Əlaqələndirmə Qərargahının sistemli fəaliyyəti Qarabağ və Şərqi Zəngəzurun quruculuq işlərini intensivləşdirir

→ 6

## Proqnozlar reallaşır

Qeyri neft-qaz sektorunda ÜDM istehsalı 10 faizə yaxın artıb

→ 11

## 3 ildə Qarabağ və Şərqi Zəngəzura 34 mindən çox ailə köçürüləcək

Keçmiş məcburi köçkünlər arasında sorğu keçirilir

→ 9

## "Bu, hələ başlanğıcdır"

Rəcəb Tayyib Ərdoğan kəskin şəkildə bəyan etdi ki, Türkiyə lazım olan zamanda quru əməliyyatına başlayacaq

→ 9

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri

# Rəsmi qarşılanma mərasimi

**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Serbiyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Azərbaycanın və Serbiyanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycanın dövlət və hökumət nümayəndələri isə Prezident Aleksandar Vuçiçə təqdim edildilər.









# Təkbətək görüş

**Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.

Görüşdə çıxış edən Serbiya Prezidenti **Aleksandar VUÇİÇ** dedi:

- Biz bu gün Sizi burada qəbul etmək imkanına görə çox məmnunuq. Serbiyaya xoş gəlmisiniz. Cənab Prezident, Sizinlə əvvəllər də görüşlərimiz olub. Siz ölkəmizə dəfələrlə səfər etmisiniz. Biz Azərbaycanın tutduğu mövqeyi yüksək dəyərləndiririk və bu mövqeyə çox hörmətlə yanaşırıq. Vətəndaşlarımız arasında əlaqələr inkişaf edir. Dostluğumuz həm Sizin, həm də bizim tərəfdə görülən konkret işlərdə öz təzahürünü tapıb. Serbiyanın ərazi bütövlüyünə hər zaman verdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Biz də Azərbaycanın çətin, ağır vaxtlarında eyni mövqedən çıxış etmişik. Azərbaycan bizim çoxdankı dostumuzdur və ümidvaram ki, bundan sonra da biz münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Heç kəs bir faktı inkar edə bilməz ki, biz yaxın dostuq, yaxın dost kimi qalırıq. Bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın səviyyəsini artırmaq üçün əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra çıxış edən Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Gözəl ölkənizdə olmaqdan və fəal dialoqumuzu davam etdirməkdən çox məmnunam. Biz beynəlxalq arenada, bəzi beynəlxalq tədbirlərdə tez-tez görüşürük. Telefonla əlaqə saxlayırıq. Bir sözlə əlaqədəyik. Biz ikitərəfli əlaqələrimizin inkişafına hər zaman töhfə veririk. Hazırda onların artıq strateji tərəfdaşlıq mahiyyəti var. Bu, sadəcə, imzaladığımız bəyanatla kifayətlənmir, əməkdaşlığımızın əsasını təşkil edir. Artıq qeyd etdiyiniz kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyimizi dəstəkləmişik və bunu davam etdirəcəyik. Biz həmçinin çox sıx şəxsi münasibətlər qurmuşuq, bir-birimizə böyük hörmətlə yanaşırıq. Bu, ikitərəfli əməkdaşlığımızın vacib elementlərindən biridir.

Mən böyük nümayəndə heyəti ilə gəlmişəm və həmçinin Serbiya tərəfinin böyük nümayəndə heyətini görürəm. Nümayəndə heyətimizin üzvlərinin çox fəal surətdə söhbət aparmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı fürsəti olacaq. Əməkdaşlığımızı hansı şəkildə daha da inkişaf etdirmək, tərəfdaşlığımızı gücləndirmək yollarını müzakirə edəcəyik. Qonaqpərvərliyə görə bir daha minnətdaram.

# Geniş tərkibdə görüş

**Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentini salamlayan Serbiya Prezidenti **Aleksandar VUÇİÇ** dedi:

- Hörmətli cənab Prezident.

Əziz dostlar.

Serbiyaya gəldiyinizə görə təşəkkür edirik. Bu gün Sizi Belqradda görməkdən çox məmnunuq. Sizi yenidən öz ölkəmizdə görürük və ümid edirik ki, biz də Sizin ölkəyə səfər edəcəyik. Səfər etdiyinizə görə minnətdarıq və bilirik ki, Siz bu günlərdə çox məşğulsunuz. Amma öz tərəfimdən deyə bilərəm ki, Sizin fəaliyyətiniz daha məhsuldardır. Biz ən yaxşı dostlarıq. Bilirəm ki, ölkəmizə səfərinizi öz gündəliyinizə salmaq nə dərəcədə çətin idi.

Təkbətək görüş zamanı ölkələrimiz arasında real dostluq bir daha təsdiqləndi. Biz hər zaman Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək vermişik. Siz də həmişə heç də asan olmayan şəraitdə Serbiyanın ərazi bütövlüyünü və suverenliyini hər zaman çox dəstəkləmisiniz. Biz eyni addımları davam etdirəcəyik. Bilirəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan hər zaman eyni mövqedən çıxış edəcək.

Son dövrdə əldə etdiyiniz bir çox uğurlar münasibətilə Sizi təbrik edirik. İqtisadi uğurlarınız hər kəsin marağına səbəb olur. Biz Sizin timsalınızda real, çiçəklənən ölkəni, Serbiyanın daha böyük dostunu və müttəfiqini görürük. Gəldiyinizə görə bir daha təşəkkür edirik. Ümidvaram ki, mənim Bakıya səfərim və Sizin yenidən Belqrada gələcəyiniz zaman məsələləri müzakirə etmək üçün daha çox vaxtımız olacaq.

❖ ❖ ❖

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** çıxış edərək dedi:

- Sağ olun, cənab Prezident.

İlk növbədə dəvətə görə minnətdaram. Sizi yenidən görməyimə çox şadam. Qonaqpərvərliyə görə təşəkkür edirəm. Bizim elə indicə təkbətək surətdə ikitərəfli çox yaxşı və məhsuldar müzakirəmiz oldu. İndi isə söhbətimizi davam etdirəcəyik. Sizin haqlı olaraq qeyd etdiyiniz kimi, Serbiya və Azərbaycan hər zaman beynəlxalq arenada bir-birini dəstəkləyiblər. Ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə aid məsələlərə hər zaman ölkələrin maraqları əsasında baxılıb. Bu da təbiidir, çünki ölkələrimiz strateji tərəfdaşdırlar. Biz əməkdaşlığımızın yeni səviyyəyə qaldırılması üçün müvafiq sənədləri imzalamışıq. Eyni zamanda əməkdaşlığımızın məzmunu da mehribançılığa əsaslanır. Bu gün biz bir çox məsələləri müzakirə edəcəyik. Fürsətdən istifadə edərək mən Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm. Azərbaycana rəsmi səfərinizdən sonra biz son bir neçə il ərzində beynəlxalq tədbirlər əsnasında dəfələrlə görüşmüşük və bir yerdə söhbət aparmaq imkanımız olub. Bu dəvətə görə minnətdaram və gözəl ölkənizdə, bizə dost olan Serbiyada yenidən olmağıma, Sizinlə və nümayəndə heyətimizin digər üzvləri ilə strateji tərəfdaşlığımızın gələcək inkişafına töhfə verməyimə çox şadam. Bir daha sağ olun və Sizi Azərbaycanda gözləyəcəyik.



## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri

# Azərbaycan-Serbiya sənədləri imzalanıb







**Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat"ı, "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum"u və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi"ni imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"i Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov və Serbiya Respublikasının daxili işlər naziri Bratislav Qaşiç imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın sertifikatlarının tanınması haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Serbiyanın tikinti, nəqliyyat və infrastruktur naziri Qoran Vesiç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında Saziş"in tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında İnzibati Razılaşma"nı Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Serbiya Respublikasının əmək, məşğulluq, veteran və sosial məsələlər naziri Nikola Selakoviç imzaladılar.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Serbiya Respublikasının Serbiya İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Serbiya Respublikasındakı səfiri Kamil Xasiyev və Serbiya İnkişaf Agentliyinin direktoru Radoş Qazdiç imzaladılar.

"Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO ilə Serbiyanın Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Serbiya Respublikasındakı səfiri Kamil Xasiyev və Serbiyanın Ticarət və Sənaye Palatasının vitse-prezidenti Mixaylo Vesoviç imzaladılar.

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**Noyabrın 23-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Serbiya Prezidenti bəyanatla çıxış etdi.




### Prezident Aleksandar Vuçiçin bəyanatı

- Hörmətli Prezident Əliyev.

Hörmətli dostlar, Azərbaycan hökumətinin hörmətli nazirləri, Serbiya Respublikasının hörmətli nazirləri, hörmətli jurnalistlər.

Bu gün Belqradda ölkəmizin əsl dostunu, Azərbaycan Prezidenti cənab İlham Əliyevi qəbul etməkdən çox şadam. Bu gün səhərdən etibarən bizim çox yaxşı müzakirəmiz oldu. Təəssüf ki, ümumi vəziyyətə görə o, ölkəmizdə daha uzun müddət ərzində qala bilmir, lakin inanıram ki, qısa müddətdən sonra əlimizə yenə də onu Serbiyada qəbul etmək fürsəti düşəcək.

Bizim Azərbaycanla bir çox oxşarlıqlarımız var. Hər iki ölkə öz ərazi bütövlüyünü qətiyyətli şəkildə qoruyub saxlayır və biz bir-birimizə beynəlxalq arenada, beynəlxalq təsisat və təşkilatlarda BMT Nizamnaməsinə və beynəlxalq ictimai normalara əməl edərək kömək edirik. Biz bu məsələdə bir-birimizə etibar edə bilərik.

Bu gün Prezident Əliyevdən bir çox məsələləri öyrəndik. Yalnız bir neçə ölkənin beynəlxalq hüquq normalarına riayət etməsindən başqa beynəlxalq hüquqdan çox az bir şey qalıb. Biz buna əməl etməyin gələcəyimiz üçün yeganə imkan və seçim olduğunu düşünürük. Bu gün biz Azərbaycanla birgə bəyanatı, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında memorandumu imzaladıq. Biz bu əməkdaşlığı yeni müstəviyə qaldırdıq. Bu gün biz bütün vacib məsələləri müzakirə etdik. Bu məsələlər arasında enerji sahəsində əməkdaşlığın necə aparılması məsələsi də yer almışdır. Qazın istehsalı və ixracına gəldikdə, Azərbaycan qüdrətli ölkədir, yeddi, səkkiz və on ildən sonra Azərbaycan 35 milyard kubmetrdən daha çox qaz ixrac edəcək. Bu gün qaz ixracı təxminən 22 milyard kubmetr təşkil edir. Bu həcmin yarısından çoxu Avropa ölkələrinə nəql olunur. Məhz buna görə biz Serbiya və Bolqarıstan arasında interkonnektorun yaradılması üzərində çalışırıq ki, Bakıdakı dostlarımızın ixrac etdiyi əhəmiyyətli qaz həcmlərini təchiz edə bilək. Biz elektrik enerjisinin verilişini müzakirə etdik. Çünki Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən böyük bir Avropa layihəsi var. Biz Avropadan olan tərəfdaşlarımızın bu layihəyə qoşulmasını müzakirə edəcəyik. Çünki burada elektrik xətti suyun altından çəkiləcək. Xətt Qara dənizin altından keçir ki, bizim paylayıcı şəbəkə Rumıniya və Macarıstanın paylayıcı şəbəkəsinə müvəffəqiyyətlə qoşula bilsin, nəticədə biz gələcəkdə təhlükəsiz şəkildə elektrik enerjisini ala bilək və ölkəmizin elektrik enerjisi ilə bağlı tam təhlükəsizliyini təmin edək. Bu həmçinin ölkəmizdə sənaye istehsalının genişlənməsi və vətəndaşlarımızın artan ehtiyacları ilə bağlıdır. Bizə bu enerji təhlükəsizliyi lazım olacaq və biz Azərbaycandan olan dostlarımıza, xüsusilə Prezident Əliyevə buna görə minnətdarıq. Əlbəttə ki, Serbiya etibarlı tərəfdaşdır və mən bir az bundan əvvəl bir zarafat etdim. Prezident Əliyev bizim ərazimizdən Tartak, Prelinaya yolun çəkildiyini gördükdə buna inana bilmədi. Bu Prelina hissəsi onlar tərəfindən tikilmişdir. Bu, həqiqətən də, çətin hissə idi və onlar işi vaxtında, heç bir gün də gecikmə olmadan təhvil verdilər. Bu da bizim üçün qəribədir. Onlar bir il yarım bundan əvvəl 2011-ci ildə götürdüyümüz bütün borcu geri ödədiyimizə görə təəccübləndilər. Biz bu borcu tam şəkildə əvvəlcədən ödədik, çünki ölkələr, adətən, bunu etmirlər. Lakin Serbiya borcları ödəmək üçün imkanımız olduqda belə məsələlərə alışıb. Mən bunu nəyə görə deyirəm, çünki bu baxımdan bizim də bildiyimiz kimi Azərbaycan Serbiyanın etibarlı tərəfdaş olduğunu bilir. Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır.

Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu belə də olacaq. Bu bizim üçün, həqiqətən də, vacibdir.

Biz bir çox başqa mühüm məsələləri müzakirə etdik, gübrə çatışmazlığı, neft-kimya müəssisələrinin fəaliyyəti barədə danışdıq, bir çox başqa məsələləri - hərbi-texniki əməkdaşlığı, nazirliklər arasında bir çox başqa məsələləri, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələləri müzakirə etdik. Bütün səviyyələrdə əməkdaşlıq, kənd təsərrüfatı sahəsində, iki ölkənin nazirlikləri tərəfindən bu gün imzalanmış əmək, sosial müdafiə sahəsində mühüm razılaşmalar var. Biz müzakirələri davam etdirəcəyik. Bizim üçün olduqca əhəmiyyət kəsb edən bir neçə məsələni müzakirə etmək üçün qarşıdakı 20 gündə mənim Bakıya, Azərbaycana qeyri-rəsmi, lakin mühüm səfərim gözlənilir. Məni bu gün əsası qoyulmuş strateji tərəfdaşlığı çox konkret razılaşmalar və əməli addımlarla dərinləşdirmək üçün Serbiya hökumətinin bir neçə naziri müşayiət edəcək. Görürəm ki, bu, zarafat deyil, baxmayaraq ki, kiməsə zarafat kimi görünə bilər, İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Avropada necə dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən, onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm. Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, Kosovo ilə bağlı nəyə isə ehtiyacları olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Onlar ondan hər şeyi xahiş edirlər. Mən, həqiqətən, şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib, o, hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin edib, ona hörmət edilməsinə nail olub, öz ölkəsinin qayğısına qalır və öz ölkəsinin maraqlarını müdafiə edir. Qoy başqaları düşünsün ki, onlar dəyişiblər ya yox, yanaşma və prinsiplərini dəyişiblər, ya yox.

Serbiya kiçik ölkədir. Bizim qazımız yoxdur. Bizim litiumumuz var. Lakin biz yeganə ölkəyik ki, dünya miqyasında litium istehsalını əldən vermişik, daha ağıllı insanlar hakimiyyətə gəldikdə bu işi yerinə qoyacaqlar. Ölkəmizin təhlükəsizliyini təmin edəcəyik, ən azı cənab Əliyevin Azərbaycan üçün etdiklərinin yarısını edəcəyik. Biz ölkəmizin həqiqi dostunun kim olduğunu hər zaman görmüşük və onlarla əməkdaşlığımızı inkişaf etdirmək üçün əlimizdən gələni edəcəyik. Mən çox şadam və günün qalan hissəsini, həmçinin Azərbaycandakı görüşlərimizi səbirsizliklə gözləyirəm. Burada, Belqradda daha bir görüşü səbirsizliklə gözləyirəm. O zaman mən Azərbaycan Prezidentindən ölkəmizdə daha çox qalmağı xahiş edəcəyəm, çünki ölkəmizdə ən azı bir gecə qalmasanız bizim xətrimizə dəyər. İnanırıq ki, qonaqpərvərliyimizi nümayiş etdirə bilərik. İnanırıq ki, özünüzü Avropada heç yerdə olmadığı kimi Serbiyada evinizdəki kimi hiss edəcəksiniz. Bir daha təşəkkür edirəm, xalqınıza ən xoş arzularımı çatdırıram.

Qarşıda bizi çox işlər gözləyir və mən bu gün imzaladığımız bütün sənədlərə görə çox xoşbəxtəm və bilirəm ki, hələ çox işlər görüləcək. Biz Azərbaycan və Serbiya xalqlarının, vətəndaşlarının maraqları və rifahı naminə daha çox iş görə biləcəyik. Bir daha təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl ölkənizə dəvətə görə də Sizə minnətdaram. Eyni zamanda Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə də Sizə təşəkkürümü bildirirəm. Bu, əsl dostun sözləridir. Bizi Prezident Vuçiç ilə dostluq əlaqələri bağlayır və hesab edirəm ki, Serbiya-Azərbaycan əlaqələrinin sürətli inkişafında bu amil önəmli rol oynamışdır.

Aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında, əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var.

Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir. Prezident Vuçiçin dediyi kimi, ölkələrimizin suverenliyi, ərazi bütövlüyü qarşılıqlı surətdə dəstəklənir və bu mövqe birmənalıdır, dəyişməzdir və dəyişməz olaraq qalacaq. Eyni zamanda Prezident Vuçiçin beynəlxalq təşkilatlarla bağlı dediyi sözlərə də şərh verərək bir neçə kəlmə demək istərdim. Bizim torpaqlarımız uzun illər işğal altında idi. Dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər. Onların arasında, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılması tələb edilirdi. BMT-nin Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmırdı. Bu nəyi göstərir? Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri, onların icrası selektiv xarakter daşıyır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir, bəzi hallarda isə bir neçə saat ərzində icra edilir. Amma bizim məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözləyirdik və buna nail ola bilmədik. Ona görə dünya ictimaiyyəti beynəlxalq təşkilatların gələcək fəaliyyəti ilə bağlı öz təkliflərini verməlidir. Biz də Azərbaycan olaraq buna hazırıq. Çünki qəbul edilmiş qərarlar əgər həyatda öz əksini tapmırsa, yerinə yetirilmirsə, əlbəttə ki, bu çox düşündürücüdür.

Biz nəticə etibarilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi, BMT-nin Nizamnaməsi bu imkanı bizə verirdi, özünümüdafiəetmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik və artıq iki ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini - 10 min kvadratkilometrdən böyük olan ərazini yenidən qurur.

Biz, əlbəttə ki, bu və digər məsələləri ölkələrimizin maraqlarının prizmasından təhlil edirik və bu gün ikitərəfli formatda bir çox beynəlxalq məsələlərə də toxunduq. Eyni zamanda regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Mənim dostum Aleksandarın dediyi kimi, energetika sahəsindəki əməkdaşlığı müzakirə etdik və bu gün bu müzakirələr davam edəcək. Təbii qaz, elektrik enerjisi sahələrində əməkdaşlıq üçün yeni imkanlar var. Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaq. Əlbəttə ki, ilk növbədə biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik. O cümlədən hərbi-texniki sahədə əməkdaşlıq aparılır və bu əməkdaşlığın daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımlar atılacaqdır.

Bir sözlə, biz bu gün növbəti illər üçün bir gündəlik tərtib etdik. Əlbəttə ki, prezidentlər bu gündəliyi diqqətdə saxlayacaqlar, bu məsələlərin icrasına nəzarət edəcəklər. Bunu daha operativ və səmərəli şəkildə etmək üçün, əlbəttə ki, biz tez-tez görüşməliyik.

Mən əziz dostumu, Prezident Vuçiçi Azərbaycana səfərə dəvət etdim. Hesab edirəm ki, ilin sonuna qədər bu səfər gerçəkləşə bilər və ondan sonra, əlbəttə, mən də yenidən gələcəyəm. Mənim Serbiyaya səfərim bir qədər uzandı, yəni bir qədər gecikdi. Çünki Prezident Vuçiç üç il yarım bundan əvvəl Azərbaycanda idi. Mən də cavab səfəri etməli idim. Amma COVID-in müdaxiləsi nəticəsində bir qədər ertələndi. Amma yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Belə səfərlərimiz çox olacaq. Bizim dostluğumuz da əbədi olacaq. Qonaqpərvərliyə və diqqətə görə bir daha təşəkkürümü bildirirəm.

# Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyanın Baş naziri ilə geniş tərkibdə görüşü olub



**Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Baş naziri xanım Ana Brnabiç ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Serbiyanın Baş naziri **Ana BRNABİÇ** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi bu gün Belqradda görməkdən olduqca məmnunam. Bilirəm ki, bizim bir çox məsələlərə nəzər salmaq imkanımız oldu. Sizin bizim Prezidentlə məhsuldar müzakirələriniz olub. Sizi əmin etmək istərdim ki, Serbiya hökumətinə arxalana bilərsiniz. Siyasi və iqtisadi əlaqələrimiz inkişaf edir. Azərbaycanın bizim üçün çox böyük əhəmiyyəti var. Ölkəniz bizim əsl dostumuzdur. Artıq qeyd etdiyim kimi, Sizinlə görüşməkdən və məsələləri müzakirə etməkdən məmnunam və şərəf hissi duyuram. Özünüzü burada öz evinizdəki kimi hiss edin. Mən Sizinlə birgə işləməyi səmimiyyətlə arzulayıram.

❖ ❖ ❖

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, hörmətli Baş nazir. Sizi görməyimə çox şadam. Haqlı olaraq qeyd etdiniz ki, Prezidentlə bizim çox konstruktiv görüşümüz oldu, biz qarşılıqlı maraq doğuran bir çox məsələləri müzakirə etdik. Hazırda biz həmin məsələləri davamlı şəkildə nəzərdən keçirəcəyik. Ölkələrimiz strateji tərəfdaşlardır və biz Serbiyanı Avropada özümüzün ən yaxşı dostlarımızdan biri hesab edirik. Əməkdaşlığımızın mahiyyəti onun formalarını özündə əks etdirir. Biz bu gün bir neçə mühüm sənəd imzalamışıq və onlar iş birliyimizin hüquqi əsaslarını genişləndirir. Lakin, əlbəttə ki, strateji tərəfdaşlığa aid sənəd xüsusi əhəmiyyət kəsb edir.

Təbii ki, qlobal gündəlikdə mühüm məsələlərdən biri enerji təhlükəsizliyidir və biz cənab Prezidentlə bu məsələni müzakirə etdik. İndi isə işimizi davam etdiririk. Eyni zamanda düşünürəm ki, biz daşımalarla bağlı infrastrukturumuzun birləşdirilməsi üzərində çalışmalıyıq. Çünki Serbiya və Azərbaycan Avropanı Asiya ilə birləşdirən enerji marşrutunun üzərində yerləşir. Fikrimcə, bu sahədə əməkdaşlığın əhatə dairəsi daha geniş olmalıdır. Həmçinin mən ikitərəfli ticarətə aid bəzi məlumatlara baxdım. Rəqəmlər çox kiçikdir. Bu il dövriyyə artımına baxmayaraq, yenə də hesab edirəm ki, bunun üzərində işləmək imkanları var. Əlbəttə, bütün bu və digər məsələlər nəzərdən keçiriləcək. Ümid edirik ki, səfərdən sonra əməkdaşlığımızda yeni dinamikanı görəcəyik.



## Belqradda Ümummilli Lider Heydər Əliyevin və Milorad Paviçin abidələrini ziyarət



**Serbiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də paytaxt Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı abidələrin önünə əklil qoydu.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin Taşmaydan parkında ucaldılmış abidəsinin açılışı Prezident İlham Əliyevin iştirakı ilə 2011-ci ildə olub.

Dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin abidəsinin paytaxt Belqradın Taşmaydan parkında ucaldılması ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.



## Azərbaycan Prezidentinin şərəfinə Serbiya Prezidenti tərəfindən rəsmi lanç verilib

**Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç tərəfindən rəsmi lanç verilib.**

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri noyabrın 23-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Belqrad şəhərinin "Nikola Tesla" Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Serbiya Prezidenti Aleksandar Vuçiç yola saldı.



# İLHAM ƏLİYEV Avropada ən populyar şəxsdir

*Əvvəli 1-ci səh.*

### 25 illik uğurlu diplomatik münasibətlər

Azərbaycan-Serbiya münasibətləri son illərdə yüksələn xətlə inkişaf etməkdədir. 1997-ci il avqustun 21-də qurulan diplomatik münasibətlər ötən 25 ildə daha da şaxələndirilib. 2011-ci ilin fevral ayında Serbiyanın Azərbaycanda, 2011-ci il iyunun 8-də isə Azərbaycanın bu ölkədə səfirliyi açılıb.

2010-cu ilin mayında Serbiyanın sabiq Prezidenti Boris Tadiçin Azərbaycana ilk rəsmi səfəri baş tutdu ki, bu da yüksək səviyyədə intensiv dialoqun və dövlət başçıları arasında xüsusi münasibətlərin başlanğıcı oldu, altı ikitərəfli sənəd imzalandı.

Ölkələr arasında kənd təsərrüfatı, sənaye, tikinti, energetika, informasiya texnologiyaları və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün potensial var. Həmçinin siyasi əlaqələr yüksək səviyyədədir. İndiyədək iki ölkə arasında 44 sənəd imzalanmışdı. İlham Əliyevin bu ölkəyə dünənki rəsmi səfəri çərçivəsində imzalanan daha 8 sənədlə onların sayı 52-yə çatdı.

Bu sənədlər arasında 2013-cü ildə imzalanmış "Dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2018-ci ildə imzalanmış "Strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı" xüsusi əhəmiyyət daşıyırdı.

Dünən də dövlət başçıları vacib sənədlərə imza atdılar. Bunların sırasında "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat", "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum" və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi" mühüm sənədlərdir.

Bu sənədlərin əhəmiyyətini dəyərləndirərkən İlham Əliyev dedi ki, imzalanmış sənədlər ikitərəfli əlaqələrin hüquqi bazasını təşkil edir və onların arasında, əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur: "Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var".

Azərbaycan ilə Serbiya arasında siyasi dialoq, humanitar əməkdaşlıq daim yüksək səviyyədə olub. Hələ 2011-ci il iyunun 8-9-da Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri çərçivəsində dövlət başçısı Belqradın Taşmaydan parkında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsinin, həmçinin Novi Sad şəhərində dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin büstünün açılışlarında iştirak etmişdi.

### "Dostluğumuz əbədi olacaq"

Son illərdə Serbiya prezidentləri Azərbaycana bir neçə dəfə səfərə gəliblər. Aleksandar Vuçiçin Serbiya Prezidenti kimi Azərbaycana səfəri isə 2018-ci il mayın 21-22-də reallaşıb.

Dünən isə İlham Əliyev serbiyalı həmkarını bir daha Azərbaycana səfərə dəvət etdi: "Prezident Vuçiçi Azərbaycana səfərə dəvət etdim. Hesab edirəm ki, ilin sonuna qədər bu səfər gerçəkləşə bilər və ondan sonra, əlbəttə, mən də yenidən gələcəyəm. Belə səfərlərimiz çox olacaq. Bizim dostluğumuz da əbədi olacaq".

Səfər zamanı dövlət başçıları çox mühüm məsələlər ətrafında müzakirələr apardılar, bəzi beynəlxalq proseslərə də toxundular. Eyni zamanda regional təhlükəsizlik məsələlərini müzakirə etdilər.

İlham Əliyev bəyan etdi ki, iki ölkə arasında təbii qaz, elektrik enerjisi sahələrində əməkdaşlıq üçün yeni imkanlar var: "Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaq. Əlbəttə ki, ilk növbədə biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik".

Prezident həmçinin hərbi-texniki sahədə əməkdaşlığın aparıldığını və bu əlaqələrin daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımların atılacağını vurğuladı.

Azərbaycan Prezidentinin Serbiyaya səfəri, aparılan danışıqlar, imzalanan sənədlər onu deməyə əsas verir ki, iki ölkə arasındakı strateji tərəfdaşlıq güclənəcək və müxtəlif sahələr üzrə əməkdaşlıq bundan sonra daha da şaxələnəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Azərbaycanın Baş naziri ilə Türkiyənin Vitse-prezidenti arasında telefon danışığı olub

**Noyabrın 23-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında Türkiyənin Düzcə vilayətində baş vermiş zəlzələ ilə bağlı narahatlıq ifadə olunub, yaralananların tezliklə sağalması, zəlzələnin nəticələrinin və dəymiş ziyanın aradan qaldırılması arzulanıb.

Bildirilib ki, Azərbaycan hər zaman olduğu kimi, bu çətin məqamda da Türkiyənin yanındadır.

Türkiyənin Vitse-prezidenti göstərilən diqqətə görə minnətdarlığını bildirib.

# "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi komitələrin birgə iclasında müzakirə edilib



Noyabrın 23-də Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri və üzvləri olan deputatlar iştirak ediblər. İclasda "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.

Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli iclası açaraq bildirib ki, ölkədə cəmiyyət həyatının bütün sahələrini əhatə edən sistemli, ardıcıl islahatlar həyata keçirilir. Bu islahatlar nəticəsində Azərbaycanın dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində ciddi dəyişikliklər müşahidə olunur. Milli Məclis də qanunvericilik müstəvisində bu prosesdə yaxından iştirak edir.

Vitse-spiker parlamentdə təmsil olunan siyasi partiya nümayəndələrinin "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclisin Sədrinə müraciət etdiyini diqqətə çatdırıb. O, yeni qanunun hazırlanmasını zəruri edən məqamlardan söhbət açaraq qeyd edib ki, qanunun qəbulundan 30 il keçib, bu müddətdə ölkənin ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verib. Yeni qanunda həmin dəyişikliklər öz yerini tapmalı idi. O bildirib ki, Milli Məclisin Sədri Sahibə Qafarova siyasi partiyaların təklifini dəstəkləyib və yeni qanun layihəsinin hazırlanması haqqında tapşırıq verib.

Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələri tərəfindən qanun layihəsinin hazırlanması prosesi barədə məlumat verib. İş prosesində dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənildiyini, ölkənin siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələrinin nəzərə alındığını bildirib. O, bu məsələ ilə bağlı Milli Məclisin ölkədə fəaliyyət göstərən siyasi partiyalara müraciət etdiyini və 47 siyasi partiyadan 250-dən çox təklifin daxil olduğunu söyləyib.

Vitse-spiker diqqətə çatdırıb ki, qanun layihəsi hazır olduqdan sonra Milli Məclisin saytında yerləşdirilərək geniş ictimaiyyətin müzakirəsinə təqdim olunub. Sonra qanun layihəsi ilə bağlı siyasi partiya təmsilçilərinin və Qeyri-Hökumət Təşkilatlarının nümayəndələrinin iştirakı ilə iki dinləmə keçirilib. Bununla yanaşı, mətbuatda, sosial şəbəkələrdə sənədlə bağlı aparılan müzakirələrdə müxtəlif fikirlər səsləndirilib. İctimai dinləmələrdə, müzakirələrdə təqdim olunan təkliflər nəzərə alınaraq, qanun layihəsi üzərində iş davam etdirilib və sənəd yenilənmiş variantda müzakirəyə çıxarılıb. O, Sosial Tədqiqatlar Mərkəzinin qanun layihəsi ilə bağlı həyata keçirdiyi işləri də təqdirəlayiq hesab edib.

Bildirilib ki, sənədin yenilənməsi zamanı layihədə 66 dəyişiklik edilib.

Sonra qanun layihəsi ilə bağlı çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli siyasi partiyaların təmsilçilərinin ictimai müzakirələr zamanı səsləndirdiyi fikirlərin sənəddə öz əksini tapdığını bildirib. Qeyd edib ki, məqsəd qanun layihəsinin Konstitusiyaya və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olmasından, habelə birləşmək azadlığı hüququnu özündə ehtiva etməsindən ibarət idi. O, qanun layihəsinə edilən dəyişikliklərdə müzakirələr zamanı siyasi partiyalar və ictimaiyyət nümayəndələrinin səsləndirdiyi fikirlərin öz əksini tapdığını deyib.

Birinci vitse-spiker yenilənmiş layihədə sənədlərin toplanması ilə bağlı müddətin artırıldığını, partiyanın təsis edilməsi, qeydiyyatı, sənədlərin yoxlanılması ilə bağlı rəqəmlərin isə azaldıldığını bildirib. Qeyd edib ki, layihəyə edilən dəyişikliklər nəticəsində müzakirələr zamanı bəzi məqamlarla bağlı narahatçılıq doğuran məsələlər aradan qaldırılıb.

Əli Hüseynli qanun layihəsinin "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğun olduğunu vurğulayıb.

Sonra iclasda parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış edib. O, dövlətin idarə olunmasında və hakimiyyətin formalaşmasında əsas institutlardan biri olan partiyalarla bağlı yeni qanun layihəsinin demokratik prinsiplərə əməl edilməklə və şəffaflıq şəraitində hazırlandığını bildirib. Komitə sədri qeyd edib ki, onun təmsil etdiyi Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğuda vətəndaşlar tərəfindən yüksək dəstək alan müddəaların layihədə daha da genişləndirilməsi, müdafiə olunmayan təkliflərin isə sənəddən çıxarılması, əvəzində demokratik norma və prinsiplərə daha çox üstünlük verilməsi sübut edir ki, qanun layihəsi həm də xalqın siyasi iradəsini ifadə edir.

Komitə sədri qanun layihəsinə edilən bəzi dəyişikliklər barədə məlumat verib. Diqqətə çatdırıb ki, partiyaların yaradılması üçün üzv tələbinin 10 mindən 5 min nəfərə endirilməsi demokratik bir normadır. Partiyalarla bağlı dövlət orqanları tərəfindən atılan addımların yalnız siyasi plüralizm, açıq və ədalətli rəqabət mühitinin gücləndirilməsinə xidmət edəcəyi sənəddə qeyd olunub.

Zahid Oruc bildirib ki, seçkilərdə 2 və ya 3 dəfə iştirak etməyən partiyaların qeydiyyatının ləğv edilməsi ilə bağlı müddəalar layihədən çıxarılıb. Eyni zamanda Azərbaycanda ilk dəfə dövlət hər hansı kvota qoymadan, yəni 3 faizlik baryer müəyyənləşdirmədən seçki prosesinə marağı artırmaq və beləliklə, siyasi rəqabəti gücləndirmək, təbliğat və təşviqat prosesini genişləndirmək, hər vətəndaş səsi uğrunda mübarizə aparmaq, seçiciləri ayrılıqda deyil, nizami və strukturlaşmış partiyalara cəlb etmək üçün Avropa siyasi təcrübəsində geniş tətbiq olunan bir model qanunvericiliyə daxil edilir. O qeyd edib ki, qanun layihəsinin 25.2.4 və 25.2.5-ci maddələrini bu baxımdan inqilabi addımlar kimi xarakterizə etmək olar. Layihədə hər hansı etnik siyasi birliklərə və separatizmə yol açan müddəalara yol verilməyib. Komitə sədri vurğulayıb ki, dövlətin məqsədi ölkədə siyasi mühitin canlanması və çoxpartiyalılıq üçün əsasların genişləndirilməsidir.

Sonra iclasda sənədlə bağlı geniş müzakirələr aparılıb. Komitə sədri Ziyafət Əsgərov, deputatlardan Qüdrət Həsənquliyev, Asim Mollazadə, Sahib Alıyev, Fazil Mustafa, Rauf Əliyev, Razi Nurullayev, Erkin Qədirli, Anar İsgəndərov, Ceyhun Məmmədov, Elşad Mirbəşir oğlu, Tahir Kərimli, Kamaləddin Qafarov, Kamilə Əliyeva, Elman Nəsirov, Azər Badamov, Sevinc Fətəliyeva, Bəhruz Məhərrəmov qanun layihəsi barədə fikirlərini bölüşüblər.

Çıxış edənlər sənədin ölkədə sağlam siyasi mühitin formalaşmasında, yeni cəmiyyət quruculuğu prosesinin sürətləndirilməsində əhəmiyyətindən danışıblar. Deputatlar qanun layihəsinin çoxpartiyalı sistemin yaradılmasına, partiyaların ölkənin ictimai-siyasi həyatında rolunun artırılmasına xidmət edəcəyini söyləyiblər. Millət vəkilləri layihənin yenilənmiş variantında bəzi məhdudiyyətlərin aradan qaldırılmasını təqdirəlayiq hesab ediblər. Bildirilib ki, sənəd Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına, dövlətlə siyasi partiyalar arasında səmərəli əməkdaşlığa, siyasi partiyalar arasında qarşılıqlı faydalı dialoqa öz töhfəsini verəcək.

İclasın sonunda "Siyasi partiyalar haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclis ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv qəbul olunub

**Noyabrın 23-də Kamboca Krallığında keçirilən ASEAN Parlamentlərarası Assambleyasının (ASEAN PA) 43-cü Baş Assambleyasının ikinci plenar iclası Azərbaycan parlamentarizmi üçün əlamətdar hadisə ilə yadda qalıb.**






Belə ki, iclasda Azərbaycan Respublikası Milli Məclisinin ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv kimi qəbul olunması ilə bağlı təntənəli mərasim təşkil olunub.

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ölkələrin rəsmi qəbuletmə mərasimində ilk olaraq Azərbaycanın üçrəngli bayrağı fəxri qarovulun müşayiəti ilə səhnəyə gətirilib.

Kamboca Krallığı Milli Assambleyasının sədri, ASEAN PA-nın 43-cü Baş Assambleyasının prezidenti Akka Moha Ponhea Çakri Henq Samrin Milli Məclisin ASEAN PA-ya müşahidəçi üzv qəbul olunması ilə bağlı müvafiq sənədi Azərbaycan parlamentinin sədri Sahibə Qafarovaya təqdim edib.

Xatırladaq ki, ASEAN PA-nın daxili nizamnaməsinə əsasən, milli parlamentlərin təşkilatda müşahidəçi statusu alması ilə bağlı müraciətləri 2-3 il ərzində araşdırıldıqdan sonra müvafiq qərar qəbul olunsa da, Azərbaycan Milli Məclisinin bununla bağlı müraciətinə prioritet qaydada baxılaraq dərhal cavab verilib və dəstəklənib.

Əlavə edək ki, iclasda Azərbaycan parlamenti ilə yanaşı, ABŞ Konqresi və Nepal Federal Demokratik Respublikasının Milli Assambleyası və Gürcüstan parlamenti də müşahidəçi üzv qismində təşkilata qəbul edilib. Qeyd olunub ki, yeni müşahidəçi üzvlərin bu təşkilatda iştirakı ASEAN PA-nın fəaliyyətinə mühüm töhfə verəcəkdir.

Təntənəli mərasimdən sonra təşkilata yeni müşahidəçi üzv qəbul olunmuş parlamentlərin nümayəndələri ilə görüşlər keçirilib.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığının Nümayəndələr Palatasının sədri ilə görüşüb

ASEAN Parlamentlərarası Assambleyasının 43-cü Baş Assambleyasında iştirak etmək məqsədilə Kamboca Krallığında səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 23-də Mərakeş Krallığının Nümayəndələr Palatasının sədri Raşid Talbi El Alami ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Nümayəndələr Palatasının sədrini salamlayan spiker Sahibə Qafarova cari ilin iyun ayında Bakıda keçirilən Qoşulmama Hərakatının Parlament Şəbəkəsinin birinci konfransı çərçivəsində Raşid Talbi El Alami ilə görüşünü məmnunluqla xatırladıb. O, Mərakeşin Parlament Şəbəkəsinin həm 2021-ci ildə Madriddə keçirilən təsis iclasında, həm də Bakıda keçirilən ilk konfransında təmsil olunmasından razılığını ifadə edib.

Qoşulmama Hərakatının Parlament Şəbəkəsinin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradıldığını xatırladan parlamentin spikeri təşkilatın fəaliyyəti, qarşıda duran vəzifələr, Azərbaycanın sədrliyi ilə həyata keçirilən və şəbəkənin institusional inkişafına xidmət edən tədbirlər, həmçinin Parlament Şəbəkəsinin Manamada keçirilməsi nəzərdə tutulan ikinci konfransına hazırlıq məqsədilə görülən təşkilati işlər barədə geniş məlumat verib. Spiker Sahibə Qafarova bildirib ki, sədr olaraq hazırda Parlament Şəbəkəsinin digər parlamentlərarası təşkilatlarla əməkdaşlığını genişləndirməyə çalışırıq. Həmçinin üzv parlamentlərin nümayəndə heyətlərinin formalaşdırılması üzərində işlər davam edir.

Görüşdə qeyd olunub ki, xalqlarımız arasında ortaq dini və mədəni köklər ölkələrimiz arasında əlaqələrdə də mühüm rol oynayır. Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın xüsusi yer tutduğunu qeyd edən spiker Sahibə Qafarova deyib ki, hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərməsi məmnunluq doğurur. Parlamentlərimiz arasında təcrübə mübadiləsi, beynəlxalq parlament təşkilatları çərçivəsində uğurlu əməkdaşlıq nümunəsi var.

Görüşdə Milli Məclisin Sədri ölkəmizin 2020-ci ildə Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərini azad etməsi və öz ərazi bütövlüyünü bərpa etməsi, münaqişənin həllindən sonra bölgədə yaranmış yeni vəziyyət, həmçinin hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan böyük quruculuq və bərpa işləri barədə ətraflı məlumat verib. Azərbaycanın hər zaman sülh istədiyini, regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində lazımi tədbirləri həyata keçirdiyini deyən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan müstəqil deyil, müstəqil siyasət həyata keçirə bilmir və destruktiv mövqe nümayiş etdirir, ziddiyyətli bəyanatlar verir. Ermənistan bu cür hərəkətlərdən çəkinməli və sülh sazişinin imzalanması üçün real addımlar atmalıdır.

Azərbaycan bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edir və ölkəmizə qarşı da eyni münasibəti gözləyir.

Mərakeş Krallığının Nümayəndələr Palatasının sədri Raşid Talbi El Alami cari ildə Azərbaycana səfərindən məmnunluğunu bildirib, ölkəmizdə gördüyü inkişaf prosesləri barədə xoş təəssüratlarını bölüşüb.

Mərakeşin Qoşulmama Hərakatı çərçivəsində fəaliyyətə xüsusi diqqət yetirdiyini bildirən Nümayəndələr Palatasının sədri, o cümlədən Hərakatın Parlament Şəbəkəsində əməkdaşlığın da əhəmiyyətini qeyd edib. O, Azərbaycanın Parlament Şəbəkəsinə sədrliyini uğurlu hesab etdiklərini və hər cəhətdən dəstəklədiklərini bildirib.

Ölkələrimiz arasında xoş münasibətlər olduğunu deyən Raşid Talbi El Alami bu münasibətlərin parlamentlər çərçivəsində də davam etdiyini söyləyib, qanunverici orqanlarımızda fəaliyyət göstərən dostluq qrupları arasında əməkdaşlığı qeyd edib. Mərakeş Nümayəndələr Palatasının sədri ölkələrimizin ərazi bütövlüyü məsələsində bir-birinə qarşılıqlı dəstək verməsini də razılıqla qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin deputatları ASEAN PA-nın 43-cü Baş Assambleyasında keçirilən müzakirələrdə iştirak ediblər

Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti ASEAN Parlamentlərarası Assambleyasının (ASEAN PA) 43-cü Baş Assambleyasında iştirak etmək məqsədilə Kamboca Krallığında səfərdədir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, noyabrın 23-də Baş Assambleya çərçivəsində təşkilata üzv ölkələrin nümayəndələri ilə müşahidəçi parlamentlərin təmsilçiləri arasında dialoq keçirilib. Tədbirdə Milli Məclisin üzvləri - Kamboca ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ramin Məmmədov və Elnur Allahverdiyev iştirak ediblər.

"Sülh, davamlı inkişaf və COVID-19-dan bərpaya investisiya" mövzusunda keçirilən müzakirələrdə deputatlarımız çıxış edərək, Azərbaycanın sülh, davamlı inkişaf, COVID-19-dan sonrakı dövrdə bərpa prosesində fəaliyyəti və əldə olunan nailiyyətlər barədə məlumat veriblər.

Daha sonra Milli Məclisin üzvləri tərəfindən üzv parlamentlərin nümayəndələrinin sualları cavablandırılıb.

***"Azərbaycan"***



## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR dirçəliş yolundadır



# Sürətli məskunlaşmaya aparan ikiillik uğurlu fəaliyyət

## Əlaqələndirmə Qərargahının sistemli fəaliyyəti Qarabağ və Şərqi Zəngəzurun quruculuq işlərini intensivləşdirir

**Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinin maksimum keyfiyyətli, sürətli və planlı icrası ümummilli prioritetlərdəndir.**

Hazırda həmin ərazilərin dirçəldilməsi, məskunlaşma prosesinin sürətləndirilməsi üçün nəzərdə tutulan genişmiqyaslı işlər kompleks şəkildə həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə qərargahını da Prezident İlham Əliyev bu məqsədlə yaradıb.

Qərargahın ikiillik fəaliyyətinin yekunlarına dair iclasda qərargahın fəaliyyəti qiymətləndirilib, qarşıda duran yeni vəzifələr, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" ilə bağlı məsələlər, dövlət başçımızın tapşırıqlarının icrasına dair son vəziyyət və digər mövzular müzakirə edilib. Qərargahın fəaliyyətində səmərəlilik, operativlik və dayanıqlılıq prinsiplərinin daim rəhbər tutulması təqdir olunub.





### Prezidentin rəhbərliyi ilə quruculuğun ən uğurlu modeli yaradılıb

Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev çıxışında Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərə səfərlərindən, o cümlədən Laçın və Şuşa şəhərlərindəki son çıxışlarından irəli gələn tapşırıqlardan bəhs edib. S.Nuriyev Qərargahın ötən ikiillik fəaliyyətinin nəticələrinə əsasən, qurumlararası əlaqələndirmənin və əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyini qeyd edib. Eyni zamanda hərtərəfli planlaşdırma, proqnozlaşdırma və risklərin qiymətləndirilməsi işinin aparılmasının, habelə səmərəli nəzarət və monitorinq mexanizmlərinin əhəmiyyətini vurğulayıb.

Qərargah rəhbəri ekosidə, urbisidə və etnosidə məruz qalmış ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə öz daxili imkanlarımız sayəsində postkonflikt quruculuğunun dünya üçün nümunə ola biləcək uğurlu modelinin yaradıldığını qeyd edib.

İclasda həmçinin Əlaqələndirmə Qərargahının gündəliyində dayanan cari məsələlərlə bağlı məruzələr dinlənilib. Prezidentin tapşırıqlarına uyğun olaraq, 2023-cü il ərzində əhalinin Laçın şəhərinə, Zabux və Sus kəndlərinə qayıdışı istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, dövlət başçısının göstərişlərinə uyğun olaraq Laçına dərhal bir neçə işçi qrupu ezam edilib və ərazidə minadan təmizləmə, inventarlaşdırma, ilkin qiymətləndirmə və layihələndirmə işlərinin ardınca genişmiqyaslı yenidənqurma və bərpa işləri artıq başlanılıb.

Bundan başqa, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın icrası, ərazidə dayanıqlı enerji sisteminin qurulması, enerji və istilik təminatı məsələləri barədə məruzələr təqdim edilib.

İclasın gündəliyinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri müvafiq layihələrin icrasının gedişatı barədə məlumat veriblər. Sonda dövlət başçısı tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

### Azad torpaqlarımızda əhalinin məskunlaşması işğaldan əvvəlki səviyyəyə çatdırılır

Həmsöhbətimiz Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edir ki, qərargahın fəaliyyətinin Prezidentin rəhbərliyi ilə həyata keçirilən postkonflikt quruculuğu modelinin formalaşmasında xüsusi rolu var. Bu, həmçinin işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşmasının işğaldan əvvəlki səviyyəyə çatdırılması üçün vacib faktordur. Deputatın sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda infrastrukturun formalaşdırılması, ərazilərin minalardan təmizlənməsi, o cümlədən məskunlaşma prosesinin başlanması təsdiq edir ki, Qərargah ayrı-ayrı fəaliyyətlərin sistemləşdirilməsinə və layihələrin daha optimal şəkildə reallaşdırılmasına dəstək olur.

"Ümumilikdə Əlaqələndirmə Qərargahı Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı işlərin koordinasiyasını intensivləşdirib. Ona görə qərargahın ikiillik fəaliyyəti müsbət qiymətləndirilməlidir. Hər kəs şahiddir ki, işğaldan azad edilmiş ərazilərdə infrastruktur çox qısa vaxtda formalaşdırıldı, kommunal xidmətlərə əlçatanlıq təmin edildi. Bu, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı və orada məskunlaşması baxımından vacibdir. Yəni qərargah məskunlaşma prosesinin tezləşdirilməsinə birmənalı şəkildə xidmət edir. Fikrimcə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" da qərargahın işinin təkmilləşməsinə səbəb olacaq", - deyə deputat bildirib.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Dönüşün bələdçisi





Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri sürətlə davam edir. Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" isə bu işləri keyfiyyətcə yeni mərhələyə yüksəldir. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, həmin sənəd Qarabağın və Şərqi Zəngəzurun parlaq gələcəyi barədə aydın təsəvvür yaradan bələdçidir.

### Qarabağ və Şərqi Zəngəzur təhlükəsiz zonaya çevrilir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, ötən ilin fevralında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi təsdiq edilərkən işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış beş milli öncəlikdən biri kimi müəyyən olunmuş, prosesin reallaşdırılması istiqamətində çox ciddi addımların atılmasına başlanmışdı: "Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" isə bu milli prioritetimiz üzrə köklü hüquqi bazadır. Eyni zamanda bu sənədi qəbul etməklə postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərin əsl sahibi kimi Qarabağ və Şərqi Zəngəzura əbədi qayıtmağa nə qədər qərarlı olduğumuzu dünyaya göstəririk. Həmçinin bu sənəd öz qələbə nitqində Qarabağı və Zəngəzuru dirçəldəcəyimizi bəyan edən Müzəffər Ali Baş Komandanın ərazilərimizin yenidən qurulması ilə bağlı iradəsinin əməli təzahürü və prosesin reallaşdırılmasının praktiki planıdır".

Deputat bildirib ki, kifayət qədər əhatəli olan bu proqram həm də keçmiş məcburi köçkünlərin konstitusion səviyyədə ali niyyət kimi bəyan edilən hüquqlarının və azadlıqlarının, layiqli həyat şəraitlərinin təmin edilməsi istiqamətində ciddi yol xəritəsidir: "Nəzərə almalıyıq ki, bizim təxminən bir milyon soydaşımız 30 ildir ki, doğma torpaqlarından didərgin salınmaqla hüquqlarından məhrum olunublar. Qəbul olunan sənəd yalnız çoxsaylı hüquqların bərpasına yönəlməyib, bu iş həm də dövlət proqramının prioritet istiqamətləri kimi sistemli şəkildə təmin ediləcək. Sənəddə ilk növbədə Qarabağ və Şərqi Zəngəzurun təhlükəsiz zonaya çevrilməsi hədəflənir ki, bu həm də ciddi geosiyasi hadisə hesab olunmalıdır. Biz regional təhlükəsizliyə ümummilli məqsəd kimi baxmaqla Ermənistandan, onun təhrikçi havadarlarından fərqimizi ortaya qoyuruq".

B.Məhərrəmovun sözlərinə görə, proqramda qarşıya qoyulan digər vacib hədəf sakinlər üçün layiqli həyat şəraitinin təmin olunmasıdır. Bunun üçün müasir yaşayış məntəqələrinin salınması, əhatəli və qabaqcıl standartlara cavab verən infrastrukturun qurulması nəzərdə tutulur. İstifadəyə verilən Füzuli, Zəngilan Beynəlxalq Hava limanları, Ağalı kəndi, həmçinin digər rayonlarımızda başlanan çoxşaxəli işlərin nümunəsində müvafiq istiqamətdə çox ciddi nəticələrimiz var. Eyni zamanda cənab Prezident proqramda kompleks yanaşma ortaya qoyaraq əhalinin yalnız öz ata-baba yurdlarına təhlükəsiz layiqli qayıdışını deyil, həm də dayanıqlı məskunlaşması məsələsini də hədəf qoyur. Bu hədəfə çatmaqdan ötrü isə ərazilərin iqtisadi inkişafının dəstəklənməsi üçün ciddi proqramların icrası nəzərdə tutulur.

"Bu kompleks hədəflər planı bölgəyə həyat gətirməklə bərabər, həm də urbisidə, ekosidə məruz qalmış böyük ərazini ən müasir və ən sağlam mühitə malik yaşayış məskənlərindən birinə çevirir. Ən nəhayət, biz quruculuğu, bərpanı təbiətin dostu, yaşıl artım ölkəsi kimi aparırıq. Təmiz ətraf mühit və yaşıl artım ölkəsi olmaq da bizim yaxın 10 il üzrə milli prioritetlərimizdən biridir. Bu mənada sözügedən dövlət proqramında işğaldan azad olunmuş ekoloji təmiz mühitin təmin edilməsi niyyətininin bəyan olunması milli prioritetə doğru inamlı addımdır", - deyə o qeyd edib.

Deputatın dediyinə görə, dövlət proqramı yalnız növbəti 4 ildə Qarabağ və Şərqi Zəngəzurda planlaşdırılan tikinti və quruculuq işləri ilə məhdudlaşmır: "Nəzərə almaq lazımdır ki, bu birinci sənəddir, hədəflər isə daha böyükdür. Bu mənada istisnasız və mübaliğəsiz deyə bilərik ki, cənab İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun bərpası və bu bölgələrə əhalinin qayıdışına dair vizyonu və hədəfləri milli dövlətçilik konsepsiyamızın ən mühüm sütunlarından birinə çevriləcək".

### Proqram müasir çağırışlara uyğundur

Milli Məclisin deputatı Aydın Hüseynov qeyd edib ki, yeni mərhələyə qədəm qoymuş Azərbaycan dövləti üçün 2023-cü ildə olduqca nikbin və möhkəm təminatlı yeni dövr başlayır: "Bu dövr Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərdə işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuğun sürətlənməsi şəraitində yeni imkanlar açır. Azərbaycan Böyük qayıdış proqramını icra etməklə, azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasını təmin etməklə müasir iqtisadi çağırışları da uğurla icra edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi bunun bariz nümunəsidir".

Deputatın sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və ümumilikdə ərazilərə Böyük qayıdışın təmin edilməsi dövlətçiliyimiz üçün vacib addımlardandır: "Bütün bunlar, eləcə də əhalinin dayanıqlı məskunlaşması üçün ərazilərdə ilkin şərtlərin yaradılması proqramın əsas məqsədlərindəndir. Həmçinin "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları əsasında yaşayış və qeyri-yaşayış komplekslərinin inşası, qabaqcıl rəqəmsal texnologiyaların geniş tətbiqi ilə "yaşıl enerji zonası" konsepsiyasının həyata keçirilməsi, müasir sosial və biznes infrastrukturunun yaradılması da növbəti ildə büdcə siyasəti qarşısında duran əsas çağırışlardandır. Bu tədbirlərin həyata keçirilməsi üçün 2023-cü ilin dövlət büdcəsinin layihəsində 3 milyard manat maliyyə təminatı yaradılıb. Görünən odur ki, 30 illik yurd həsrəti ilə yaşayan soydaşlarımızın öz doğma torpaqlarına qayıdışı, onların təhlükəsizliyinin təminatı ölkə siyasətimizin prioritetlərindəndir".

***N.QARDAŞXANOVA, "Azərbaycan"***

# Böyük qayıdışa akademik dəstək

## Prezidentin Qarabağ və Şərqi Zəngəzurla bağlı strateji yol xəritəsinin icrasında AMEA mühüm layihələrlə iştirak edəcək

Azərbaycan 44 günlük müharibədə parlaq zəfər qazanaraq 30 il müddətində işğal altında qalan torpaqlarını azad etdi. Bu tarixi qələbə sayəsində dədə-baba yurdundan zorla didərgin salınan yüzminlərlə vətəndaşımızın torpaq həsrətinə son qoyuldu.

Vətən müharibəsindən dərhal sonra isə Azərbaycan onilliklər boyu Ermənistan tərəfindən dağıdılaraq viranəyə çevrilən Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq, bərpa işlərinə start verdi. Birbaşa Prezident İlham Əliyevin rəhbərliyi altında çox qısa zamanda sözügedən iqtisadi rayonlarda böyük layihələr gerçəkləşdirildi.

Zəfərdən ötən ikiillik zaman çərçivəsində bu ərazilərdə infrastruktur qurulub, nəhəng tunellər, sənaye parkları, yeni yollar salınıb və sosial obyektlər istifadəyə verilib. Ötən il cəmi 8 aya tikilib istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, eləcə də bu il açılışı həyata keçirilən Zəngilan Beynəlxalq Hava Limanı görülən işlərin möhtəşəm nəticələrindəndir. Laçında tikilən daha bir beynəlxalq hava limanının isə 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Artıq bu ərazilərdəki bütün şəhərlərin baş planları da təsdiqlənib.

Göründüyü kimi, zəfərdən sonra Böyük qayıdışla bağlı genişmiqyaslı işlər, meqalayihələr həyata keçirilib. Bunun nəticəsidir ki, artıq bir neçə aydır Zəngilanın Ağalı kəndinin sakinləri "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulmuş kəndlərinə dönüblər.

### Beş Milli Prioritetdən biri - Böyük qayıdış

Dövlətimiz işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışı Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən edib. Bu mühüm qərar Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 16 noyabr 2022-ci il tarixli sərəncamında əksini tapıb.

Böyük qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi ilə bağlı məsələyə münasibət bildirən AMEA-nın prezidenti,



akademik İsa Həbibbəyli bildirib ki, adıçəkilən dövlət proqramı Qarabağ və Şərqi Zəngəzurda bu günə qədər aparılan geniş quruculuq işlərinin məntiqi davamıdır, strateji hədəflərə çatmaq üçün, eləcə də bundan sonra həyata keçiriləcək tədbirlərin mükəmməl yol xəritəsidir və müstəqil Azərbaycan tarixinə Qarabağın yenidən qurulmasına dair İlham Əliyev proqramı kimi daxil olub. Ölkə rəhbəri tərəfindən bu günə kimi bir çox dövlət proqramlarının uğurla icra olunduğunu deyən AMEA rəhbəri Böyük qayıdışa dair I Dövlət Proqramının da cənab Prezident İlham Əliyevin rəhbərliyi altında yüksək səviyyədə həyata keçiriləcəyini söyləyib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, elmi cəhətdən də əsaslandırılmış mükəmməl sənəd olan dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb.

O qeyd edib ki, dövlət proqramının 2.4.5-ci "Nüfuzlu xarici təhsil müəssisəsinin filialının yaradılması istiqamətində təşviqedici tədbirlərin görülməsi" üzrə bəndində akademiyaya Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Xarici İşlər Nazirliyi ilə birgə müvafiq tapşırıqlar verilib. Onun sözlərinə görə, tapşırıqda regionun sosial-iqtisadi ehtiyaclarının və kadr potensialının təhlil olunması və müvafiq təkliflər hazırlanması, filialı yaradılacaq ali təhsil müəssisəsinin müəyyənləşdirilməsi, filialın yaradılması və fəaliyyətinin təmin edilməsi əksini tapıb.

### Tarixi abidələrin bərpası və qorunması işinin təşkili əsas vəzifələrdəndir

Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə yerləşən tarixi abidələrin bərpası və qorunması işinin təşkili, abidələrin inventarlaşdırılması, pasportlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsinin qarşıda duran əsas vəzifələrdən olduğunu deyən akademik İsa Həbibbəyli sözügedən sənədin, həmçinin 2.7.4-cü bəndində "Tarix və mədəniyyət abidələrində, eləcə də daşınmaz tarix-mədəniyyət abidələrində bərpa, konservasiya, rekonstruksiya və regenerasiya işlərinin aparılması"nın da tapşırıldığını bildirib: "Bu istiqamətdə işlər Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Dövlət Turizm Agentliyi ilə birgə həyata keçiriləcək. Birgə işlər abidələrin ilkin inventarlaşdırılması, cari vəziyyətinin təhlili, foto, video və 3D formatında qeydə alınması və məlumat bazasının yaradılması, abidələrin tikinti, təmir və bərpa işlərinin layihələndirilməsi və həyata keçirilməsi, eləcə də abidələrin bərpa edilməsi və elektron məlumat bazasının yaradılması istiqamətində aparılacaq".

Akademik strateji əhəmiyyət daşıyan və milli maraqlarımızın qorunmasına xidmət edən Dövlət Proqramının həyata keçirilməsində AMEA-nın çoxminlik kollektivinin öz səylərini əsirgəməyəcəyini və Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinə alimlərimizin töhfələrini verəcəklərinə əminliyini bildirib.

Qeyd edək ki, AMEA Rəyasət Heyətinin qərarı ilə Böyük qayıdışa dair I Dövlət Proqramında AMEA-nın üzərinə düşən vəzifələrdən irəli gələrək Tədbirlər Planının hazırlanması məqsədilə akademik İsa Həbibbəylinin sədrliyi ilə komissiya yaradılıb.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Milli Məclisdə mətbuat konfransı keçirilib

Noyabrın 23-də parlamentin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin birgə iclasında "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin birinci oxunuşda müzakirəsindən sonra Milli Məclisdə mətbuat konfransı keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mətbuat konfransından əvvəl Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev tədbirdə iştirak edən jurnalistlərlə görüşərək Milli Məclisin Sədri Sahibə Qafarovanın adından media nümayəndələrini salamlayıb və mətbuat konfransının işinə uğurlar arzulayıb.

Tədbiri açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli jurnalistlərin suallarına cavab olaraq bildirib ki, "Siyasi partiyalar haqqında" qanun layihəsinin geniş ictimai müzakirələrindən sonra layihənin yeni variantına ümumilikdə 66 düzəliş edilib. Düzəlişlər həm mahiyyət, həm də texniki xarakterlidir. İctimai müzakirələrdən sonra layihəyə partiyaların təsis olunması, ləğv edilməsi, qeydiyyatdan keçməsi və s. məsələlərə dair müddətlərlə bağlı düzəlişlər edilib. Layihə birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə olunub.

Sonra jurnalistlərin suallarına cavab verən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, bu gün Azərbaycanda dövlət quruculuğu siyasətinin əsas hədəfi ölkədəki siyasi partiyaların hüquqi müstəvidə fəaliyyət aparmalarıdır. Son üç ildə partiyalarla kifayət qədər görüş və dialoqlar keçirilib. Yeni qanun layihəsini tərtib etməkdə məqsəd bu sahədə ortaq məxrəcin tapılması və güclü siyasi partiyaların formalaşdırılmasıdır. Dövlət Vətən müharibəsində qazandığı Zəfərdən sonra ölkədə qalib siyasi sistem yaratmaq niyyətindədir.

Mətbuat konfransında jurnalistlərin bütün sualları ətraflı cavablandırılıb .

*"Azərbaycan"*

# Şeyxülislam Allahşükür Paşazadə Mərakeşdə BMT Sivilizasiyalar Alyansının IX Qlobal Forumunda iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə noyabrın 22-23-də Mərakeş Krallığının Fəs şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının (UNAOC) IX Qlobal Forumunda iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, BMT Sivilizasiyalar Alyansının, Mərakeş Krallığının və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmtəşkilatçılığı ilə keçirilən Fəs Qlobal Forumunun mövzusu "Sülh alyansına doğru: Vahid bəşəriyyət olaraq birlikdə yaşamaq"dır. QMİ sədri noyabrın 22-də forumun BMT Baş katibi Antonio Quterreşin iştirakı ilə baş tutan açılış mərasiminin ilk hissəsində - nüfuzlu dövlət xadimlərinin yer aldığı "Müdriklərin səsi" adlı plenar iclasda yeganə dini lider olaraq çıxış edib.

Çıxışda deyilir: "Bir olan Uca Yaradanımızın adı ilə. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının IX Qlobal Forumunda Azərbaycan xalqının, dövlətimizin başçısı Prezident İlham Əliyevin salamlarını Əlahəzrət Kral VI Məhəmmədə, Mərakeş xalqına, görkəmli dövlət, elm və din xadimlərinə, forumun alidəyər iştirakçılarına yetirməkdən böyük şərəf duyuram. Dünya miqyasında sülh və birgəyaşayış dəyərlərinin olduqca mühüm əhəmiyyət kəsb etdiyi müasir dövrdə BMT-nin "Sülh alyansına doğru: Vahid bəşəriyyət olaraq birlikdə yaşamaq" mövzusunda forumu xüsusilə təqdirəlayiq haldır. Mərakeş Krallığının ali dəstəyi və evsahibliyi, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin iştirakı, Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Anxel Moratinosun dəyərli səyləri, habelə qərargahı Azərbaycanda yerləşən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə ərsəyə gələn Fəs Qlobal Forumuna xeyir-dualarımı bildirir, onun işinə Ulu Rəbbimizdən uğurlar diləyirəm.

Uca Allah "Qurani-Kərim"də bizlərə xitabən buyurur: "Ey insanlar. Biz sizi kişi və qadından yaratdıq. Sizi xalqlar və qəbilələr olaraq qərar verdik ki, bir-birinizi tanıyasınız" (Hücurat, 13). Müxtəlif mədəniyyətlərin bir arada olması Rəbbimizin təqdiridir və bizim bir-birimizi daha yaxşı tanımağımıza xidmət edir.

Müasir dövrün çağırışları bəşəriyyət qarşısında ciddi vəzifələr qoyur. Təəssüflə qeyd olunmalıdır ki, beynəlxalq sabitliyə və təhlükəsizliyə əngəl törədən ideoloji və praktiki çağırışlar, o cümlədən ksenofobiya, dini və etnik dözümsüzlük faktları qlobal miqyasda artmaqdadır. Hazırda insanlar arasında təcavüzü, zorakılığı və ayrı-seçkiliyi qızışdıran, müasir texnologiyalar vasitəsilə müxtəlif ölkələrdə sabitliyi pozan siyasi və sosial təhdidə çevrilən nifrət çağırışları müharibələrə, soyqırımı cinayətlərinə səbəb ola bilir. Kütləvi qırğın silahlarının artması, hərb ritorikasının güclənməsi nüvə təhlükəsini artırır. Sivilizasiyaların toqquşdurulması cəhdləri dünyanı böyük fəlakətə sürükləyə bilər. Dünya ictimaiyyəti milli, irqi, dini zəmində dözümsüzlüyə yox deməlidir. Təcavüzə və zorakılığa təhrik edən nifrət çağırışları, söz azadlığı və din pərdəsi altında hər hansı radikalizm təzahürləri, dinlərin müqəddəs dəyər və atributlarının təhqir olunması halları qətiyyətlə qınanmalıdır. Qəbul edilməlidir ki, təhlükə dindən deyil, din adından siyasi məqsədlər üçün sui-istifadə olunmasından irəli gəlir. Müasir dünyada bəşəriyyəti təhdid edən çağırışların başında ekoloji və hərbi cinayətlər, ərzaq və su təhlükəsizliyi, o cümlədən ekosistemin məhv edilməsi və torpaqların yararsız vəziyyətə salınmasının fəsadı olaraq yaşanan humanitar problemlər dayanır.

Dünyanın tanınmış siyasi, elm, din və ictimaiyyət xadimlərinin iştirak etdikləri forumda qlobal kontekstdə aktual əhəmiyyət kəsb edən bir çox mövzular barədə fikir mübadiləsi aparılıb. Şeyxülislam Allahşükür Paşazadə forum çərçivəsində tədbirlərdə iştirak edib, Mərakeş Krallığının rəsmiləri və nüfuzlu tədbir iştirakçıları ilə, o cümlədən BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, Ümumdünya Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdüssəlam, İspaniyanın sabiq Baş naziri Zapatero, İRSİKA baş direktoru Erol Kılıç, ICESCO baş direktoru Salim Al-Malik, KAICIID-in sabiq Baş katibi Feysal bin Müammar, Ərəb dövlətləri Liqasının sabiq baş katibi Amr Musa və digərləri ilə görüşüb.

# Cenevrədə BMT-nin təşkil etdiyi ənənəvi "Beynəlxalq bazar"da Azərbaycan təmsil olunub

Azərbaycanın Cenevrədə BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi BMT tərəfindən təşkil olunmuş ənənəvi "Beynəlxalq bazar"da iştirak edib.

AZƏRTAC xəbər verir ki, hər il BMT-nin Cenevrə şəhərindəki bölməsində - Millətlər Sarayında təşkil olunan "Beynəlxalq bazar"ın keçirilməsində məqsəd ölkələr tərəfindən onların mədəniyyəti, incəsənəti, mətbəxi və adət-ənənələrinin təbliğ edilməsi və dünyanın müxtəlif bölgələrində yaşayan uşaqlara yardım üçün təsis olunmuş xeyriyyə fonduna töhfələr verilməsidir.

Builki "Beynəlxalq bazar" "Uşaqlar naminə ittifaq" şüarı altında təşkil edilib. Tədbirdə Cenevrə şəhərindəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında akkreditə olunmuş daimi nümayəndələr, BMT-nin Cenevrə bölməsinin baş direktoru, Cenevrə kantonunun və şəhərinin rəhbərliyi, diplomatlar, ictimaiyyətin nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Azərbaycanın daimi nümayəndəliyinin ənənəvi olaraq iştirak etdiyi "Beynəlxalq bazar"da milli mədəniyyətimizi, maddi-mənəvi irsimizi, incəsənətimizi və adət-ənənələrimizi əks etdirən eksponatlar nümayiş etdirilib. Eyni zamanda Azərbaycanın turizm potensialı, mədəniyyəti və incəsənətinə dair kitablar, jurnallar və digər materiallar iştirakçılara paylanıb. Azərbaycana aid nümunələr böyük maraqla qarşılanıb. Bununla yanaşı, qonaqlara Azərbaycandan gətirilmiş peşəkar aşpazların hazırladığı Azərbaycan mətbəxinin ləziz təamları təqdim edilib.

Ötən illərdən fərqli olaraq, builki tədbirdə Cenevrədə Mariya Xan Xoyskayanın rəhbərliyi altında fəaliyyət göstərən azərbaycanlı uşaqlardan ibarət "İrs" rəqs qrupu tərəfindən Azərbaycanın xalq rəqsləri qonaqlara nümayiş etdirilib.

Tədbirin sonunda Azərbaycan Respublikası hökuməti adından müəyyən məbləğdə maliyyə vəsaiti BMT-nin aidiyyəti xeyriyyə fonduna köçürülüb. Həmin maliyyə vəsaiti dünyanın müxtəlif yerlərində əlverişsiz şəraitdə yaşayan uşaqların xeyrinə layihələrinin həyata keçirilməsi üçün sərf olunacaq.

"Beynəlxalq bazar"dan hər il toplanan təxminən 300 min İsveçrə frankı məbləğində vəsait dünyanın müxtəlif ölkələrində 100 minə yaxın uşağa yardım məqsədilə sərf olunur.

Növbəti "Beynəlxalq bazar"ın 2023-cü ilin noyabr ayında keçirilməsi nəzərdə tutulur.

# Müdafiə nazirliyi xəbər verir

## Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış mina sahəsinə baxış olub

Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçirilib.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Azərbaycan Müdafiə Nazirliyinin dəvətinə əsasən, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin rəhbəri general-mayor Fatih Akpınar və Rusiya kontingentinin rəhbəri kontr-admiral Oleq Semyonov noyabrın 23-də həmin ərazidə olublar. Qeyd edək ki, 2021-ci ildə Ermənistanda istehsal edilmiş 350 ədəd PMN-G tipli piyada əleyhinə mina bölmələrimiz tərəfindən noyabrın 21-də zərərsizləşdirilib.

## Şuşa və Tərtər atəşə tutuldu

Noyabrın 22-si saat 22:15-dən noyabrın 23-ü saat 01:15-dək Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu və Basarkeçər rayonunun Günəşli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun İstisu və Daşkəsən rayonunun Astaf yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən qəzetimizə bildirilib ki, bundan başqa noyabrın 22-si saat 15:48-dən 18:20-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi `Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Şuşa şəhəri və Tərtər rayonu istiqamətlərində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

## Növbəti erməni yalanı ifşa edildi

Noyabrın 22-si saat 22:00-dan 22:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələrinin mövqeləri istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən, guya, atəş açılması ilə bağlı qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır, həqiqətə uyğun deyil. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən qəzetimizə bildirilib ki, bu, Ermənistan müdafiə nazirliyinin yaydığı növbəti dezinformasiyadır. Bu məlumat qəti surətdə təkzib edilir.

## Bakıda "NATO günləri" davam edir

"NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargahının nümayəndələri noyabrın 23-də "N" hərbi hissəsində olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, nümayəndə heyətinə Azərbaycan-NATO əlaqələri, hərbi hissənin fəaliyyəti və təlim mərkəzləri, eləcə də şəxsi heyətin hazırlıq prosesi haqqında brifinq təqdim olunub.

Sonra NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargahının nümayəndələri tərəfindən müxtəlif mövzularda brifinqlər verilib. Brifinqlərin təqdimatından sonra qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Daha sonra nümayəndə heyəti hərbi hissənin xatirə kitabına ürək sözlərini yazıb. Qonaqlar hərbi hissədə hərbi qulluqçular üçün yaradılan xidməti şərait və silahlanmada olan döyüş texnikası ilə tanış olublar.

*"Azərbaycan"*

# Azərbaycana daha 10 zubr gətirilib

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-nin Azərbaycan nümayəndəliyi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində noyabrın 22-də Azərbaycana daha 10 zubr gətirilib.



Bu barədə AZƏRTAC-a IDEA İctimai Birliyindən məlumat verilib.

Qeyd edilməlidir ki, zubrların Azərbaycanın təbiətinə qaytarılması üzrə həmin layihəyə 2019-cu ildə start verilib. IDEA İctimai Birliyi ilə Şahdağ Milli Parkı arasında imzalanmış əməkdaşlıq sazişinə əsasən, nəsli kəsilmiş bizonların bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində 305 hektar sahə ayrılıb, ərazidə zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib. 2019-cu ilin may ayından etibarən Almaniya, Belçika, Hollandiya zooparklarından Azərbaycana 26 baş bizon gətirilib, onların sayı təbii şəkildə artaraq 31-ə çatıb.

Almaniyanın "Tierpark Berlin" Zooloji Parkından gətirilən daha 10 zubrla birlikdə hazırda Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisində zubrların sayı 41-dir. Yeni gətirilən zubrlar bir müddət volyer şəraitində saxlanacaq, adaptasiya dövrünü keçdikdən sonra Şahdağ Milli Parkının ərazisinə buraxılacaq.

Layihənin 2028-ci ilə qədər davam etdirilməsi və zubrların sayının 100 başa çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli, demək olar ki, kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam edir.

Zubrların Azərbaycanda biomüxtəlifliyinin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq, layihənin təşkilatçıları Azərbaycanın şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə, bütöv ölkə ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işində dəstək olmağa çağırır.

# Yengicə su anbarının tikintisi ilə bağlı müqavilə imzalanıb

**Noyabrın 23-də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində Yengicə su anbarının tikintisi ilə bağlı müqavilə imzalanıb.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov Yengicə su anbarının tikintisinin əhəmiyyətindən danışıb, yeni su anbarının Qəbələ rayonunda kənd təsərrüfatının, turizmin, ümumiyyətlə, rayon iqtisadiyyatının inkişafına böyük təkan verəcəyini bildirib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan şanlı Qələbədən də danışan Z.Mikayılov Azərbaycan dövlətinin azad olunan ərazilərdə böyük quruculuq, tikinti-bərpa işləri apardığını diqqətə çatdırıb və bu işlərdə Türkiyə şirkətlərinin mühüm rol oynadığını vurğulayıb.

"SURYAPI AZ" MMC-nin direktoru Cem Hakan Elmas çıxış edərək Vətən müharibəsində qazanılan Qələbə münasibətilə bir daha təbriklərini çatdırıb və bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərinin onda yüksək təəssürat doğurduğunu deyib. Cem Hakan Elmas Yengicə su anbarının tikintisinin uğurla həyata keçiriləcəyinə və əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

Sonra Yengicə su anbarının tikintisi ilə bağlı müqavilə imzalanıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 27 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər Planı"na Əlavə 2-də Yengicə su anbarının tikintisi də nəzərdə tutulub.

Yengicə su anbarının tikinti işləri ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq tender keçirilib və tenderin nəticəsi olaraq qalib şirkət "SURYAPI AZ" MMC və "SurYapı Endüstri Sanayi ve Ticarət Anonim" şirkətinin ölkəmizdəki nümayəndəliyinin birgə müəssisəsi müəyyən olunub.

Yengicə su anbarının tikintisi işləri 2022-2024-cü illərdə həyata keçiriləcək. Anbarın tikintisinə başlanılması üçün ASC ilə "SURYAPI AZ" MMC və "Sur-Yapı Endüstri Sanayi və Ticaret Anonim" şirkətinin ölkəmizdəki nümayəndəliyi arasında podrat müqaviləsi bağlanılıb. Yeni anbarın ümumi su tutumu 17,5 milyon kubmetr, istifadə olunan həcmi isə 12,4 milyon kubmetr nəzərdə tutulub. Su anbarı tikildikdən sonra Qəbələnin aran hissəsində 10 min hektar sahənin, o cümlədən 3388 hektar sahənin su təminatı yaxşılaşacaq, 6612 hektar yeni torpaq sahəsinin suvarılması təmin olunacaq. Bu isə həmin torpaqlarda məhsuldarlığı artırmaqla yanaşı, ildə 2-3 dəfə əkin aparmağa imkan verəcək.



# Yeni siyasi konfiqurasiya qarşılıqlı etimada əsaslanır

Milli Məclisin İctimai birliklər və dini qurumlar, Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin dünən keçirilən birgə iclasında "Siyasi partiyalar haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunaraq plenar iclasın müzakirəsinə tövsiyə edilib. 6 fəsil 30 maddədən ibarət yeni qanun layihəsi olduqca mütərəqqiliyi baxımından 30 il əvvəl qəbul edilmiş və hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" qanundan əhəmiyyətli dərəcədə fərqlənir.

## İslahatlar kompleks xarakter daşıyır

Cəmiyyət həyatının hər bir sahəsində inkişafın, dəyişikliyin, dinamizmin, iş ahəngdarlığının təmin edilməsi yeni yanaşmaların tətbiqini, daha dəqiq ifadə etsək, zamanın nəbzini tutan islahatların həyata keçirilməsini tələb edir. Respublikamızın son illərdə nail olduğu inkişaf göstəriciləri də islahatların labüdlüyünün və məntiqi nəticəsinin ən gözəl nümunələridir. Xüsusən iqtisadi və sosial sahələrdə nailiyyətlərimizin hər biri ardıcıl və sistemli islahatların sayəsində mümkün olub.

Onu da qeyd edək ki, Azərbaycanda həyata keçirilən islahatlar məzmununa görə məqsədyönlü olmaqla, konkret hədəfə doğru hesablanıb. Son illərin reallıqları da göstərir ki, bu islahatlar real nəticələrini verir, inkişafa və cəmiyyətin yüksək əhvali-ruhiyyəsinin təmin olunmasına xidmət edir.

Əsas məqamlardan biri də odur ki, islahatlar məhdud sfera ilə məhdudlaşmayaraq kompleks xarakter daşıyır. İqtisadi, sosial və digər sahələrlə yanaşı, siyasi spektrdə də islahatların aparılması cəmiyyətimizdə bu müstəvidə yeni münasibətlərin yaranması ilə müşahidə olunur. Siyasi sistemdə yeni konfiqurasiyanın formalaşması, yeni dialoq mühitinin yaradılması, müxalifət təmsilçilərinin parlament idarəçiliyində iştirakçılıq imkanlarının artırılması öz fəaliyyətini sağlam müxalifətçilik prinsipləri əsasında, milli maraqların qorunması yönündə quran bütün partiyalar tərəfindən təqdir olunur.

## 50-yə yaxın siyasi partiyadan 250-dən çox təklif

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il martın 10-da keçirilən ilk iclasında iştirak edən Prezident İlham Əliyev çıxışında siyasi sistemin təkmilləşdirilməsi barədə danışaraq demişdi: "Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq".

Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması da göstərir ki, islahatların davamı kimi siyasi sistemin təkmilləşdirilməsi diqqət mərkəzindədir.

Xatırladaq ki, hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" qanun 1992-ci ildə qəbul edilib. 30 ildə isə Azərbaycanda böyük dəyişikliklər baş verib, o cümlədən cəmiyyətdə siyasi münasibətlərlə bağlı yeni çağırışlar, yeni yanaşmalar meydana çıxıb, yeni meyarlar formalaşıb. Bu baxımdan "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu həm də zamanın tələbidir. Düzdür, indiyə qədər hazırda qüvvədə olan "Siyasi partiyalar haqqında" qanuna 70-dək əlavələr və dəyişikliklər edilib. Lakin bu, müasir tələbləri tam ehtiva edə bilmir. Bütün bu faktorlar "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulunu zəruri edir.

"Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı parlamentdə təmsil olunan 11 siyasi partiya Milli Məclisin Sədri Sahibə Qafarovaya müraciət edib. Milli Məclisin Sədri yeni qanun layihəsinin hazırlanması haqqında müvafiq tapşırıqlar verib və ekspert komissiyası yaradılıb. Layihənin hazırlanması zamanı Avropanın qabaqcıl ölkələrinin təcrübəsi, milli-mənəvi dəyərlərin qorunub saxlanması, ölkədə mövcud olan siyasi sistem nəzərə alınıb. Həmçinin Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tövsiyələri nəzərdən keçirilib. 20 ölkənin təcrübəsi öyrənilib. Bununla yanaşı, siyasi partiyalar tərəfindən daxil olan təkliflərə diqqət yetirilib. Milli Məclisin siyasi partiyalara müraciətindən sonra 50-yə yaxın siyasi partiyadan 250-dən çox təklif daxil olub.

## Layihəyə 66 düzəliş edilib

Milli Məclisdə təmsil olunan və dövlət qeydiyyatından keçmiş bir sıra siyasi partiyaların sədrləri və nümayəndələrinin iştirakı ilə oktyabr və noyabr aylarında "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı iki dəfə ictimai dinləmə keçirilib. Bu tədbirlər zamanı siyasi partiyaların təklifləri dinlənilib, layihə üzərində təkmilləşmə işləri aparılıb. Qanun layihəsində ümumilikdə 66 düzəliş edilib. Düzəlişlər partiyaların təsis və ləğv edilməsi, qeydiyyatdan, reyestrdən keçməsi üçün müddətlərlə bağlı məsələləri əhatə edib.

Beləliklə, ictimai müzakirələr zamanı səsləndirilən təkliflər nəzərə alınmaqla düzəlişlər olunan qanun layihəsi Milli Məclisin komitələrinin birgə iclasında müzakirə olunub.

"Siyasi partiyalar haqqında" yeni qanun layihəsi siyasi partiyaların daha səmərəli fəaliyyət göstərməsi məqsədilə hazırlanıb. Preambulasında da qeyd olunduğu kimi, bu qanun qəbul edildikdən sonra siyasi partiyanın təsis edilməsi, dövlət qeydiyyatı, fəaliyyətinin yoxlanılması, dayandırılması və bərpasını, ləğvi qaydasını, həmçinin siyasi partiyanın fəaliyyətinin təşkili, üzvlük və maddi təminat məsələlərini müəyyənləşdirəcək. Bütövlükdə "Siyasi partiyalar haqqında" yeni qanun siyasi proseslərdə aktiv iştirak edən bütün partiyaların mənafelərini tam təmin edəcək.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Leyla Əliyevanın təşəbbüsü ilə...

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən daha bir həyət dünən sakinlərin istifadəsinə verilib.



Yenilənmiş həyət Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsi, 120/116 və Qara Qarayev prospekti, 118 və 120 ünvanlarında 650 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir. "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirməsi və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 7 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 260 ədəd müxtəlif növ ağaclar və 15000-nə qədər kollar əkilib, 2400 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" yaradılıb.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# İlham Əliyev 40 milyon azərbaycanlıya arxa çıxdı

## Azərbaycan Prezidentinin son bəyanatları İranda yaşayan soydaşlarımızı da vahid amal ətrafında birləşdirir










**Azərbaycan bütün xarici ölkələrdə, eləcə də İranda yaşayan soydaşlarımızın problemlərinə hər zaman həssaslıqla yanaşır. Bu ölkədə artıq iki aydan çoxdur ki, davam edən xalq etirazları oradakı azərbaycanlıların hüquq və azadlıqları ilə bağlı məsələni də gündəmə gətirir.**



Türk Dövlətləri Təşkilatının IX Sammitində danışan Prezident İlham Əliyev bildirib ki, kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daim diqqətdə saxlamağın vaxtı gəlib çatıb: "Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə, məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur".

Hazırda İranda davam edən etirazlar fonunda İlham Əliyevin portretlərinin və son fikirlərindən ibarət plakatların Güney Azərbaycanın bütün şəhərlərində kütləvi nümayiş etdirilməsi soydaşlarımızın Prezidentin də vacib hesab etdiyi azərbaycançılıq ideologiyası ətrafında birləşməsinin bariz nümunəsidir. Görünən odur ki, ideoloji xətt olan azərbaycançılığa bağlılıq təkcə ölkəmiz daxilində deyil, digər ölkələrdə yaşayan soydaşlarımız arasında da möhkəm və sarsılmazdır.

## "Güney Azərbaycan sizinlədir, cənab Prezident!"

Təsadüfi deyil ki, İranın küçələrində Prezident İlham Əliyevə dəstək nümayişli plakatlarda "Qarabağ fatehi", "Böyük Azərbaycanın fatehi", "And olsun Azərbaycana", "Güney Azərbaycan sizinlədir, cənab Prezident" və sair kimi şüarlar əksini tapıb.

Hər zaman, xüsusilə də son çıxışında dünya azərbaycanlılarına açıq dəstəyini ifadə edən Azərbaycan Prezidentinin xilaskar obrazı haqsızlıqla üz-üzə qalan İrandakı azərbaycanlıları daha da ruhlandırıb. Bu dəstək soydaşlarımız tərəfindən önəmli və tarixi hadisə kimi dəyərləndirilir.

Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Aslan İsabəyli də təsdiq edir ki, Güney Azərbaycan gəncliyi Prezidentimizin mesajlarını yüksək dəyərləndirir. Ona görə də Prezidentə dəstək plakatları İranın, demək olar ki, əksər böyük şəhərlərinə yayılıb. Cənab İlham Əliyevin Güney Azərbaycanda belə dəstəklənməsinin əsas səbəbi onun mesajlarının birbaşa gənclərə xitabı ilə bağlıdır.

"Gənclər yaxşı başa düşürlər ki, onlar azərbaycançılıq ideologiyasının qorunması üçün əllərindən gələni etməlidirlər. Bu gün Ulu Öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının təbliğinin və azərbaycanlıların təşkilatlanmasının vacibliyi güneyli-quzeyli Azərbaycan gəncliyi tərəfindən qəbul edilir. Ən əsası isə harda yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar Prezident İlham Əliyevə güvənir və onun çıxışlarından dərs götürürlər. Qətiyyətli Prezidentdən güc alan xalq da onun kimi möhkəm və sarsılmaz iradə nümayiş etdirirlər", - deyə o qeyd edib.

Maraqlısı odur ki, Güney Azərbaycanda Prezident İlham Əliyevin dəstəklənməsi təbii proses kimi özünü göstərir. Kütləvi dəstək nümayişi heç bir göstəriş olmadan həyata keçirilir. Belə demək mümkünsə, cənublu qardaşlarımızın Prezident İlham Əliyevə səmimi dəstəyi hansısa qurumun və ya təşkilatın deyil, Güney Azərbaycan gəncliyinin təşəbbüsü və azad qərarıdır. A.İsabəylinin sözlərinə görə, dəstək verənlər birmənalı olaraq "Biz Qarabağın fatehi Prezident İlham Əliyevin arxasındayıq və Vətənimizə and içib haqq-ədalət uğrunda mübarizəyə qalxmaqdan çəkinmirik" kimi qətiyyətli ifadələr səsləndirirlər: "Bir sıra dairələr erməni cəbhəsində dayanaraq, milyonlarla insanı doğma torpaqlarından didərgin salan, məsum körpələrin ölümünə səbəb olan, məscidləri və tarixi abidələri dağıdanlara dəstək verməklə davamlı riyakarlıq nümayiş etdirir və öz iç üzlərini ortaya qoyurlar".

## Riyakar davranışlar cavabsız qalmayacaq

İrandakı məlum qruplaşmalar öz riyakar niyyətlərini zaman-zaman büruzə versə də, İkinci Qarabağ müharibəsindən sonra daha çox təlaşa düşüb, Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin dünyada artan nüfuzunu həzm edə bilmir. Amma unudurlar ki, ölkəmizə qarşı riyakar davranışları da cavabsız qalmayacaq. Bu mənfur siyasəti həyata keçirənlər öz millətinin, eləcə də orada yaşayan azərbaycanlıların qarşısında cavab verməyə məcbur qalacaq. Sentyabr ayından etibarən baş qaldırmış xalq etirazlarının qarşısını ala bilməyən İran əl atdığı yanlış "həll yolları"ndan peşman olacaq.

Qeyd edək ki, son məlumatlara əsasən, İranın, demək olar ki, bütün şəhərlərini bürümüş etiraz aksiyaları zamanı etirazçılara silah tətbiq edilməsi nəticəsində 419 nəfər həlak olub. İran İnsan Haqları Fəalları Təşkilatının məlumatında qeyd olunub ki, həyatını itirənlərin 60 nəfəri 18 yaşına çatmayanlardır. Həmçinin etiraz aksiyalarına qoşulanların 17 min nəfərdən çoxunun həbs olunduğu bildirilir. Təəssüf ki, həyatını itirənlər arasında İran azərbaycanlıları da var. Görünən odur ki, 22 yaşlı Məhsa Əmininin əxlaq polisi tərəfindən müəmmalı şəkildə öldürülməsindən sonra başlanan kütləvi aksiyaların qurbanları artmağa davam edir.

İranda yaşayan 40 milyon azərbaycanlının Prezident İlham Əliyevə dəstəyi göz önündədir. Onlar Azərbaycana and içir, hər zaman dövlətimizin, millətimizin və Prezidentimizin yanında olduqlarını bəyan edirlər. Cənublu qardaşlarımızın sözləri ilə desək, "güneyi, quzeyi fərq etməz - hər birimiz xilaskar Azərbaycan oğlunu, Qarabağı azad edən İlham Əliyevi dəstəkləyirik".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Zərifə Əliyeva qadın ziyalılarının aparıcı qüvvəsi olub

## AMEA-da aparılan tədqiqatlar Prezidentin inkişaf strategiyasını, milli prioritetləri və yeni çağırışları əhatə etməlidir



Azərbaycan Milli Elmlər Akademiyasında akademik Zərifə Əliyevanın 100 illiyinin qeyd edilməsi üzrə tədbirlər planı hazırlanır. AMEA-nın Rəyasət Heyətinin ötən gün keçirilən növbəti iclası zamanı sözügedən məsələ ilə əlaqədar akademik İsa Həbibbəylinin sədrliyi ilə komissiya yaradılıb.

### Zərifə Əliyevanın 100 illiyi geniş qeyd ediləcək

İclasda görkəmli oftalmoloq alim və ictimai xadim akademik Zərifə Əliyevanın ölkəmizdə göz xəstəliklərinin diaqnostika və müalicəsindəki mühüm xidmətlərindən danışan akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Zərifə xanım Əliyeva gözün peşə və irsiyyət xəstəliklərinə, sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə dair fundamental tədqiqatlar apararaq bir çox insanın gözlərinə işıq verib.

O qeyd edib ki, akademik Zərifə Əliyeva ötən əsrdə Azərbaycanda qadın ziyalılarının aparıcı qüvvəsi olub, hər zaman öz zəngin dünyagörüşü və baxışı ilə fərqlənib və əsərləri bir çox xarici dillərə tərcümə olunaraq yeni oftalmoloq mütəxəssislərin yetişməsinə töhfə verib. Nüfuzlu alimin yubileyinin yüksək səviyyədə keçirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verən AMEA rəhbəri akademik Zərifə Əliyevanın 100 illiyi ilə əlaqədar Biologiya və Tibb Elmləri Bölməsində beynəlxalq konfransın keçiriləcəyini, onun yetişdirdiyi mütəxəssislərin tədbirə çağırılacağını, onun zəngin həyatı və yaradıcılığını əks etdirən kollektiv monoqrafiyanın hazırlanacağını, Fiziologiya İnstitutunda Zərifə xanım Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılan laboratoriyanın maddi-texniki bazasının yaxşılaşdırılmasına dəstək veriləcəyini diqqətə çatdırıb.

### Azərbaycan elmi qarşısında qoyulan yeni çağırışlar

İclasda, həmçinin elmi-tədqiqat işlərinin yekun hesabatlarının gedişi vəziyyəti və qarşıda duran vəzifələr haqqında müzakirələr aparılıb. AMEA rəhbəri vurğulayıb ki, akademiyanın tabeliyində olan müəssisələrdə aparılan tədqiqatlar Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını, milli prioritetləri və Azərbaycan elmi qarşısında qoyulan yeni çağırışları əhatə etməli, qeyd olunanlar yeni hesabat qaydalarında öz əksini tapmalıdır. O, şöbə və laboratoriyalarda aparılan müzakirələrdə institut rəhbərliyinin, müəssisələrin elmi şuralarında isə müvafiq bölmələrin üzvlərinin, bölmələrin ümumi hesabat iclaslarında AMEA rəhbərliyinin iştirakının zəruriliyini qeyd edib.

AMEA prezidenti bildirib ki, elmi nəticələri dolğun əks etdirən slaydlar, sərgilər, müqayisəli cədvəllərlə institutlarda aparılan tədqiqatlar ictimaiyyətə təqdim edilməli, sağlam elmi mühit yaratmaqla akademiyanın əvvəlki nüfuzu bərpa olunmalıdır.

### Elm və təhsil arasında inteqrasiya genişləndirilməlidir

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" dövlət başçısının 28 iyul 2022-ci il tarixli fərmanını xatırladan AMEA rəhbəri elm və təhsil arasında inteqrasiyanının genişləndirilməsinin tərəfdarı olduğunu deyib, sözügedən sənədin elmimizin gələcək inkişafında mühüm rol oynayacağını vurğulayıb.

İclasda bir sıra elmi-təşkilati məsələlərə də baxılıb, 2022-ci il üçün fəlsəfə və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbulun nəticələri və "AMEA-nın Məruzələri" jurnalının redaksiya heyəti təsdiqlənib.

İclasda həmçinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və "Ana dili" Gününə həsr olunmuş "Azərbaycan dilinin İKT problemləri, İKT-nin Azərbaycan dili problemləri" respublika konfransına hazırlıq müzakirə olunub.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# "Bu, hələ başlanğıcdır"

## Rəcəb Tayyib Ərdoğan kəskin şəkildə bəyan etdi ki, Türkiyə lazım olan zamanda quru əməliyyatına başlayacaq

**"Türkiyə terror hücumlarında iştirak edənlərin hamısını dərhal araşdırmaq və məsuliyyətə cəlb etmək üçün bütün imkanlara malikdir". Bunu dünən Ankarada hakim Ədalət və İnkişaf Partiyasının parlament fraksiyasının iclasında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**



Dövlət başçısı İstanbulda 6 nəfərin ölümü və 80-dən çox adamın yaralanması ilə nəticələnən terror aktına, həmçinin Suriya ərazisindən ölkənin sərhədyanı rayonlarının atəşə tutulmasına və bunun iki dinc sakinin ölümünə səbəb olmasına diqqət çəkib.

Prezident qeyd edib ki, istintaq Türkiyə metropolitenindəki terror aktının təşkilatçılarını - Suriya ərazisində fəaliyyət göstərən PKK/YPG terrorçularını üzə çıxarıb.

Dövlət başçısı xatırladıb ki, son illər sərhədyanı Hatay, Qaziantep, Kilis, Şanlıurfa və Şırnak vilayətlərinin əraziləri 764 dəfə raket və minaatan hücumuna məruz qalıb, nəticədə 32 Türkiyə vətəndaşı həlak olub, 261 nəfər yaralanıb. "Türkiyə ərazisində terror fəaliyyəti imkanlarının zəifləməsi fonunda PKK yaraqlıları ölkəmizin sərhədyanı yaşayış məntəqələrini atəşə tutmağa başlayıblar. Əgər 2015-ci ildə Türkiyədə terrorçular 26 terror aktı təşkil edibsə, son illərdə bu rəqəm 2-3 olub", - deyə Ərdoğan bildirib.

Qardaş ölkənin Prezidentinin dediyinə görə, müəyyən qüvvələrin və dövlətlərin nəzarətində olan Suriya ərazilərindən Türkiyəyə qarşı təhlükənin yolverilməzliyi ilə bağlı verdiyi təminatlar sözdə qalır. Eyni zamanda Türkiyənin verdiyi hər bir bəyanat təkzibolunmaz reallıqlara söykənir və bunların aydın səbəbi var.

"Əgər sərhəd rayonlarının terrorçulardan təmizlənməsi ilə bağlı Suriya üzrə sazişlərin tərəfləri öhdəliklərini yerinə yetirməsələr, o zaman Türkiyə milli təhlükəsizliyə təhdidləri təkbaşına aradan qaldırmaq hüququnu özündə saxlayır", - deyə Türkiyə lideri vurğulayıb.

Prezident əmin edib ki, Türkiyə ölkə üçün ən uyğun vaxtda quruda antiterror əməliyyatını keçirəcək: "Hərbi Hava Qüvvələri, artilleriya və döyüş PUA-larının iştirakı ilə antiterror əməliyyatları hələ yalnız başlanğıcdır".

Prezident Suriya və İraqı Türkiyə ordusunun antiterror əməliyyatlarından narahat olmamağa çağırıb: "Ankara qonşu ölkələrin ərazi bütövlüyünə hörmət edir. Türkiyənin yeganə məqsədi dövlətin və əhalinin təhlükəsizliyidir".

Rəcəb Tayyib Ərdoğan Ankaraya təzyiq və hücumların əsl səbəbinin Türkiyənin regional lider kimi mövqelərinin güclənməsi olduğunu vurğulayıb. Bununla bağlı o, çıxışında deyib: "Avropa İttifaqına üzvlük danışıqlarında qərəzlə üzləşmişik. Eyni şey Türkiyənin F-35 proqramında iştirakı ilə böhran zamanı da baş verdi. Biz hava hücumundan müdafiə sistemlərinin Türkiyə ərazisindən çıxarılması zamanı, Kiprlə bağlı dialoq zamanı, miqrasiya və enerji sektorlarında da ikili standartların şahidi olduq".

Türkiyə Prezidenti Suriyada Tel Rıfat, Mənbic və Ayn əl-Ərəb şəhərlərində quru əməliyyatının keçiriləcəyinin anonsunu verib və həmin ərazilərin ölkə üçün lazım olan zamanda terrorçulardan təmizlənəcəyini bildirib: "Hava əməliyyatlarımızı fasiləsiz davam etdirərkən bizə uyğun zamanda qurudan da terrorçuların təpəsinə vuracağıq. Beton tunellərin məzarlığa çevriləcəyi gün yaxındadır. İraq və Suriya hökumətləri narahat olmasınlar, atacağımız addımlar bu ölkələrin ərazi bütövlüyünü təmin edəcək".

***R. HİLALOĞLU, "Azərbaycan"***

# Qarabağ ən cəlbedici turizm məkanı olacaq

## Azərbaycan hökuməti investorlar üçün güzəştlər nəzərdə tutan sənədlər paketi hazırlayır




**Son** illər Azərbaycanda turizmin inkişafı istiqamətində əsaslı addımlar atılır. 44 günlük tarixi zəfərdən sonra azad olunmuş torpaqlarımız bu sahənin inkişafına güclü təkan verdi. Böyük təbii sərvətlərə sahib olan Qarabağ və Şərqi Zəngəzur uzun illər ərzində erməni vandalizmi nəticəsində dağıdılıb, viran edilib. Bu ərazilər işğaldan azad edildikdən sonra Azərbaycan hökuməti bərpa-quruculuq işlərinə xüsusi diqqət yetirir və dayanıqlı turizmin inkişafı üçün müvafiq addımlar atılır.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyir ki, azad olunmuş ərazilərimizdə turizmin inkişafı ilə bağlı yeni planlar hazırlanır. İl yarımdan sonra Qarabağ öz qapılarını dünyanın hər yerindən gələn turistlərin üzünə açacaq: "Azərbaycan özü Qarabağda turizmin inkişafına sərmayə qoyur, investorlar faydalı iş görmək istəyirlər. Azərbaycan hökuməti isə investorlar üçün müəyyən güzəştlər nəzərdə tutan sənədlər paketi hazırlayır".

Sədr bildirir ki, işğaldan azad olunmuş ərazilərin böyük turizm potensialı var. Artıq bir neçə yerdə turizm infrastrukturunun yaradılması istiqamətində işlər aparılır. Bundan əlavə, agentlik başqa ölkələrdən investorları cəlb etmək üçün investisiya şəraiti yaradır. Ancaq nəzərə alınmalıdır ki, müharibə bir müddət əvvəl başa çatıb və o ərazilərdə hələ də minalardan təmizləmə prosesi gedir.

Fuad Nağıyev bu ərazilərdə vətəndaşların tam təhlükəsizliyini təmin etmək üçün bir sıra dövlət qurumları ilə işlədiklərini də bildirir: "Bu ilin sonuna kimi Suqovuşanda turizm infrastrukturunu istifadəyə verməyi planlaşdırırıq. Orada su anbarının ətrafında turizm zonası yaratmağa başlamışıq. Dövlət məcburi köçkünlərin tezliklə öz torpaqlarına qayıtması üçün hər şeyi edir. Bu, turizm üçün də çox vacibdir".

Azad olunmuş ərazilərimizdə turizmin inkişafı ilə bağlı fikirlərini bizimlə bölüşən Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov bildirir ki, Qarabağ və Şərqi Zəngəzur zonasının turizm potensialı çox böyükdür: "Həmin ərazilərin elə bir füsunkar təbiəti var ki, burada həm yay, həm də qış turizmini inkişaf etdirmək mümkündür. İşğaldan azad olunmuş ərazilərimizdə artıq iki hava limanının fəaliyyətə başlaması da imkan verir ki, biz gələcəkdə Qarabağ regionunda mütəmadi olaraq turist qəbul edək".

Ekspert qeyd edir ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda minatəmizləmə prosesinin intensivliyi, bərpa-quruculuq işlərinin sürətli həyata keçirilməsi turizmin inkişafı üçün zəmin yaradır. Nəzərə almaq lazımdır ki, mənfur düşmən 30 il ərzində torpaqlarımızda olduqca çox mina basdırıb. İndi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilər minalardan təmizlənərək cənnətməkana çevrilir, əvvəlki əzəmətini bərpa edir".

Göydəniz Qəhrəmanovun sözlərinə görə, bu, vaxt və çoxlu maliyyə vəsaiti tələb edən prosesdir: "İstənilən halda, bizim Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kəndlərimiz yaxın gələcəkdə turistləri mərhələli şəkildə qarşılamağa hazır olacaq. Hesab edirəm ki, biz həmin iqtisadi zonaların zəngin turizm imkanlarından faydalanmalıyıq".

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Vüqar Əhmədov Şəmkir şəhərində vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov noyabrın 23-də saat 10:00-da Şəmkir şəhərində Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul edib.**



Qəbul Şəmkir şəhəri, Cahangir Əliyev 33 ünvanında yerləşən "Azərişıq" ASC-nin Şəmkir İdarəetmə və Nəzarət Mərkəzində keçirilib. Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutub. Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Şəmkir şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# 3 ildə Qarabağ və Şərqi Zəngəzura 34 mindən çox ailə köçürüləcək

## Keçmiş məcburi köçkünlər arasında sorğu keçirilir

**44** günlük Vətən müharibəsindən sonra Azərbaycan işğaldan azad edilmiş torpaqlarda geniş quruculuq işləri aparır, ərazilər mina və partlayıcı maddələrdən təmizlənir, dağıdılmış şəhər və kəndlər bərpa edilir.

Uzun illər doğma yurdlarından ayrı düşmüş məcburi köçkünlərin mütləq əksəriyyətinin tezliklə daimi yaşayış yerlərinə qayıtması nəzərdə tutulur. Könüllülük prinsipi ilə həyata keçiriləcək qayıdış prosesi həmin ərazilərdə təhlükəsizlik və layiqli həyat şəraiti təmin edildikdən sonra başlanacaq.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapan mühüm məqamlardan biri də həmin ərazilərə əhalinin köçürülməsi ilə bağlıdır. Proqrama əsasən, yaxın üç ildə bu ərazilərə 34 min 500 ailənin köçürülməsi nəzərdə tutulub. Bərpa qrafikinə uyğun olaraq, mərhələli şəkildə inşa edilmiş evlərə ailələrin köçürülməsi planlaşdırılır. Bu məqsədlə 2026-cı ilədək azad edilən ərazilərdə 35 minə yaxın mənzil və fərdi yaşayış evi inşa ediləcək.

Dövlət proqramında öz əksini tapan prioritet fəaliyyət istiqamətləri üzrə bir sıra tədbirlərin həyata keçirilməsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin də əsas və əlavə icraçı kimi iştirakı nəzərdə tutulub.

Komitə Böyük qayıdışa dair I Dövlət Proqramının tədbirlər planında qarşıya qoyulmuş vəzifələrin vaxtında və tələb edilən səviyyədə icrasına əvvəlcədən ciddi hazırlıq görüb, müvafiq fəaliyyətlər üzrə texniki-təşkilati baza yaradılması istiqamətində zəruri iş aparıb.



Dövlət komitəsi respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış məcburi köçkünlər arasında sorğu keçirir, doğma yurda qayıdacaq ailələrin sayının dəqiqləşdirilməsi, onların sosial vəziyyətinin və məşğulluq imkanlarının qiymətləndirilməsi üçün zəruri tədbirlər görür, əhali arasında məlumatlandırma, təbliğat işləri aparır, köçürülmənin texniki-təşkilati məsələləri ilə məşğul olur.

Keçirilən sorğunun nəticələrinə əsasən, müvafiq planlaşdırma həyata keçirilir. Əhalinin geri qayıdışı prosesi sosial-iqtisadi inkişaf dinamikası və demoqrafik meyillər nəzərə alınmaqla, sosial ədalətin qorunması prinsipinə uyğun aparılacaq. Ümumiyyətlə, sorğuda iştirak etmiş məcburi köçkünlərin böyük əksəriyyəti doğma yurda qayıtmaq niyyətində olduqlarını bildirib.

Bu məsələ ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirdi ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" olduqca mühüm əhəmiyyət kəsb edir: "Proqramda əksini tapan vacib məqamlardan biri də əhalinin həmin ərazilərdə məskunlaşması üçün müvafiq şəraitin yaradılmasıdır. Buna uyğun olaraq Qarabağ və Şərqi Zəngəzurda 200 məktəb, 100-ə yaxın xəstəxana, eləcə də "DOST" və "ASAN xidmət" mərkəzləri istifadəyə veriləcək".

Ceyhun Məmmədov keçmiş məcburi köçkünlər arasında keçirilmiş sorğunun əhəmiyyətindən bəhs edərək bildirib ki, işğaldan azad olunmuş ərazilərə nə qədər vətəndaşımızın qayıtması barədə məlumatlı olmağımızın əhəmiyyəti var. Bunu bilmədən qayıdışa dair hər hansı addımın atılması mümkün deyil. Belə sorğular ADA Universiteti və ayrı-ayrı dövlət qurumları tərəfindən mütəmadi olaraq keçirilir".

Deputat onu da vurğulayır ki, bu ümumilikdə bir çox problemin həlli üçün yeni imkanlar yaradır: "Proqramda Ağdam və Xankəndiyə qazın, eləcə də dəmir və avtomobil yollarının çəkilişi və digər məsələlər əksini tapıb. Bu onu göstərir ki, Azərbaycan dövləti əhalinin Qarabağda və Şərqi Zəngəzurda məskunlaşmasının sürətləndirilməsi üçün bütün zəruri addımları atır. Bu məqsədə xidmət edən hər bir məsələ dəqiq planlaşdırılaraq həyata keçirilir. Çoxlu sayda keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarında rahat yaşaması, onların lazımi infrastrukturla təminatı kimi məqsədlərimizə nail olmaq üçün I Dövlət Proqramından irəli gələn vəzifələr intensiv şəkildə icra edilməlidir".

***Ü.XASPOLADOVA, "Azərbaycan"***



# Qətər 2022

| Ötən günün nəticələri | | 24 noyabr təqvimi |
|---|---|---|
| **E qrupu** | | **G qrupu** |
| Almaniya - Yaponiya | - 1:2 | İsveçrə - Kamerun (14:00) |
| İspaniya - Kosta Rika | - 7:0 | Braziliya- Serbiya (23:00) |
| **F qrupu** | | **H qrupu** |
| Mərakeş - Xorvatiya | - 0:0 | Uruqvay - C.Koreya (17:00) |
| | | Portuqaliya - Qana (20:00) |

FIFA WORLD CUP Qatar2022

| A qrupu | B qrupu | C qrupu | D qrupu |
|---|---|---|---|
| Qətər | İngiltərə | Argentina | Fransa |
| Ekvador | İran | Səudiyyə Ərəbistanı | Avstraliya |
| Seneqal | ABŞ | Meksika | Danimarka |
| Niderland | Uels | Polşa | Tunis |

| E qrupu | F qrupu | G qrupu | H qrupu |
|---|---|---|---|
| İspaniya | Belçika | Braziliya | Portuqaliya |
| Kosta Rika | Kanada | Serbiya | Qana |
| Almaniya | Mərakeş | İsveçrə | Uruqvay |
| Yaponiya | Xorvatiya | Kamerun | Cənubi Koreya |

# Alınmadı...

## Xorvatiya millisi Mərakeş səddini aşa bilmədi



**Dünən F qrupunun ilk matçında Xorvatiya millisi Mərakeşlə qarşılaşdı. Görüşdə tərəflərin səylərinə baxmayaraq, qol vurulmadı. Mərakeş Dünya çempionatına yeni baş məşqçi ilə qatılıb. Komandaya yerli Valid Reqraqi başçılıq edir. Yığmanı mundiala daşıyan isə Vahid Halilhodjiç olmuşdu.**

Hakimin start fitindən sonra topu xorvatlara verərək daha çox topsuz oyunda iştirak edən komandanın fiziki hazırlığının istənilən səviyyədə olduğunu izlədik. Komanda xüsusilə müdafiənin arxasına atılan ötürmələrlə sürətli keçid oyun planı seçmişdi. Afrika təmsilçisi matçın müəyyən hissələrində buna nail olsa da, son ötürmələrdə dəqiq ola bilmədilər.

Xorvatiya isə demək olar ki, baxımlı və daha çox qısa ötürmələrə üstünlük verən oyun planını qolla tamamlaya bilmədi. Statistik göstəricilər də dediklərimizi təsdiqləyir. Belə ki, oyunda topla oynama əmsalı 65 faizlə xorvatların tərəfində idi.

Xorvatiya 1994-cü ilə qədər Yuqoslaviyanın tərkibində beynəlxalq oyunlara çıxıb. Yerli federasiya buna qədər FİFA-nın rəsmi üzvü olmayıb. Xorvatlar 1994-cü ildən quruma üzv olan ölkələr arasına daxil olub. Ləqəbi "damalılar", "blazerlər" olan milli "DÇ-2022"yə qədər 5 mundialda iştirak edib. Yığmanın ən böyük uğuru son mundialda gümüş medal qazanmasıdır. Rusiyada keçirilən Dünya çempionatında finala qədər yüksələn xorvatlar həlledici oyunda Fransaya uduzub. Xorvatiya mundialların final mərhələsinə qədər yüksələn ən gənc yığmadır.

"Damalılar" 1998-ci ildə keçirilən Dünya çempionatında da bürünc medal qazanıb. Xorvatiya futbol tarixinin ən tanınmış oyunçularından olan Davor Şukerin bombardir olduğu mundialda komanda yarımfinalda Fransaya uduzub, 3-cü yer uğrunda matçda isə Niderlandı məğlub etmişdi. Şuker bu mundialda 6 qolla bombardir olub.

Xorvatiya Dünya çempionatında ilk matçına 1998-ci ildəki mundialda çıxıb. Komanda Yamaykanı 3:1 hesabıyla məğlub edib. Mundiallardakı ən böyük hesablı qələbə Kameruna qarşı olub. "Damalılar" 2014-cü ildə Afrika təmsilçisini 4:0 hesabıyla məğlub edib.

Xorvatiya yığmasının heyətinin dəyəri 369 milyon avrodur. Millinin ən dəyərli oyunçusu Yosko Qvardioldur. Almaniya "Leypsiq"ində çıxış edən müdafiəçinin qiyməti 60 milyon avrodur. Komandada "Çelsi"dən Mateo Kovaçiç, "Real"dan Luka Modriç, "İnter"dən Marselo Brozoviç kimi ulduz futbolçular çıxış edir.



# Levandovski üzr istədi

**Polşa millisinin kapitanı Robert Levandovski "DÇ-2022"nin ilk turunda Meksika ilə keçirilən oyun haqda fikirlərini bölüşüb. "Barselona"nın hücumçusu sosial şəbəkə hesabındakı paylaşımında yazıb: "Ağıllı oynadıq, qalib gəlməli idik. Bunu qəbul etmək mənim üçün daha çətindir".**

Levandovski 58-ci dəqiqədə penaltini qola çevirə bilmədiyi üçün azarkeşlərdən üzr istəyib: "Məni bağışlayın. Bütün dəstək sözləri üçün təşəkkür edirəm. Qrupdan çıxmaq üçün mübarizəmizi davam etdiririk".

# Fransızlara zədə şoku

**Fransa millisi daha bir ciddi itki ilə üzləşib. "DÇ-2022"nin ilk turunda Avstraliya ilə oyunda (4:1) sıradan çıxan Lukas Ernandesin zədəsi ciddidir.**

Diz çarpaz bağlarında yırtıq aşkarlanan "Bavariya"nın müdafiəçisinin mundialın qalan oyunlarında meydana çıxa bilməyəcəyi məlum olub.

Qeyd edək ki, Fransa millisində Kərim Benzema, Presnel Kimpembe, Pol Poqba, Nqole Kante, Mayk Menyan və Kristofer Nkunku da zədə səbəbindən mundialda iştirak etmir.



# Messidən məğlubiyyət etirafları



Argentina millisinin kapitanı Lionel Messi "DÇ-2022"nin ilk turunda Səudiyyə Ərəbistanına uduzmaları (1:2) barədə danışıb. Qol.az xəbər verir ki, 35 yaşlı hücumçu mundiala belə başlamaqlarını gözləmədiklərini bildirib:

"Bu, hər kəs üçün çox ağır zərbədir - həm azarkeşlər, həm də bizim üçün. Turnirin belə başlayacağını gözləmirdik. Qələbə qazana biləcəyimizə əmin idik və yarışa bizə rahatlıq verəcək üç xalla başlamaq istəyirdik. Amma bu hadisələr təkbaşına baş vermir.

Rəqibin necə oynadığını yaxşı bilirdik, amma tələsdiyimiz üçün oyunda özümüzü rahat hiss etmirdik. Bəli, çox tez qol vurduq. Sonra isə qolumuz ləğv edildi. Şanslarımız çox oldu. Və o anda qərara gəldik ki, daha çox oxşar vəziyyətlər olacaq. Bu məsələdə ciddi yanıldıq. Onların yüksək müdafiə xətti ilə oynadıqlarını gördük, ona görə də topla daha sürətli işləməyə çalışdıq. Amma biz bunu kifayət qədər effektiv şəkildə hərəkət etdirmədik və dəfələrlə ofsayd vəziyyətinə düşdük. Bu da Səudiyyə Ərəbistanının bacarığıdır - burada bunu çox yaxşı başa düşdülər. Sonra da bizə qarşı iki vuruldu. Bundan sonra ümidsiz oynamağa başladıq ki, bu da daha çox səhvlərə yol açdı.

Səudiyyə Ərəbistanının topla yaxşı oynadığını bilirdik. Onlar topa sahib olmağı xoşlayırlar, buna görə də irəli gedirlər. Eyni zamanda rəqib kompakt komandadır. Buna görə də ofsaydla bağlı bir neçə vəziyyət yarandı. Biz tələyə düşdük, amma bizi təəccübləndirən bu deyildi. Birliyimizi sübut etməyin vaxtıdır. İndi buna həmişəkindən daha çox ehtiyacımız var. Gəlin oyunun əsaslarına qayıdaq və Meksikanı məğlub etməyə çalışaq".



# Polşanın penalti lənəti

Polşa yığması Dünya çempionatlarında ardıcıl 3 penaltidən yararlana bilməyən ilk komanda olub. Avropa təmsilçisi son olaraq Qətərdə keçirilən mundialın ilk turunda Meksika millisi ilə oyunda 11 metrlik cərimə zərbəsini qola çevirə bilməyib.

Bu oyunda ağ nöqtədən dəqiq oynamayan Robert Levandovski həmvətənləri Kazimej Deyna (DÇ-1978) və Matsey Juravskinin (DÇ-2022) "ənənə"sini davam etdirib.

Qeyd edək ki, Meksika - Polşa matçı qolsuz "sülh"lə başa çatıb. Polşalılar mundiallarda indiyədək 35 matçından 6-nı 0:0-la başa vurub ki, bu da 17 faizlik göstəricidir. Bu, mundialda ən azı 15 oyun keçirmiş komandalar arasında rekord göstəricidir.

# "Kapitan çox əsəbi idi"



**"Əlbəttə, çox da xoşbəxt deyiləm. Şanslarımız oldu, amma istifadə etmədik".**

Bu sözləri Polşa millisinin baş məşqisi Çeslav Mixneviç "DÇ-2022"nin qrup mərhələsinin 1-ci turunda Meksika ilə qolsuz bərabərə qaldıqları oyunu şərh edərkən deyib. O, sözügedən matçda penaltini qola çevirə bilməyən futbolçusu Robert Levandovski haqda da danışıb: "Oyundan sonra Robertə dedim ki, ona çox rəğbət bəsləyirəm. Əsəbiləşdiyi açıq-aydın görünürdü. Üstəlik, soyunub-geyinmə otağımızda monitorlar var və bir neçə dəfə penalti epizodunu göstərdilər. Robert baxırdı. Mən ona necə kömək edə bilərəm? Düşünürəm ki, bunun öhdəsindən necə gəlmək lazım olduğunu ən yaxşı özü bilir. Bütün bunları həzm etməlidir. Amma komanda onu dəstəkləməyə hər zaman hazırdır. Bilirəm ki, Robert bu qolu arzulayırdı. Ona görə təəssüflənirəm. Lakin bir çox böyük oyunçular böyük turnirlərdə penaltidən qol vura bilməyiblər".

Mixneviç qruplarının digər oyununda Səudiyyə Ərəbistanının Argentinaya 2:1 hesabı ilə qalib gəlməsi barədə bunları söyləyib: "Bu komandanın çox oyununu görmüşəm. Ona görə də Səudiyyə Ərəbistanının Argentina üzərində qələbəsi mənim üçün sensasiyaya çevrilmədi. Lakin təbii ki, belə bir nəticə gözləmirdim".

# Martinodan qrup dəyərləndirməsi



**Meksika millisinin baş məşqçisi Xerardo Martino mundialın qrup mərhələsində Polşa ilə qolsuz bərabərə qaldıqları oyunu şərh edib.**

O deyib: "Qrupdakı ssenari dəyişdi. İndi növbəti matç bizim üçün həlledici olacaq. Polşa ilə görüşdə qalib gəlməyə çalışmalıydıq. Amma Argentina millisinin ilk oyunda məğlub olduğunu da artıq bilirdik. Bu fikir futbolçuların beynində ilişib qalıb. Oçoa penaltini dəf etdiyi üçün çox şadam. Ancaq qeyd etmək lazımdır ki, bu, bütün oyunda polyaklar üçün praktiki olaraq yeganə şans idi".

Qeyd edək ki, C qrupunda hazırda Səudiyyə Ərəbistanı 3 xalla 1-ci, Polşa 1 xalla 2-ci, Meksika 1 xalla 3-cü, Argentina 0 xalla 4-cüdür.

# Xavi ölkəsini favorit görmür

**"Barselona"nın baş məşqçisi Xavi "DÇ-2022"dəki favoritləri haqqında fikirlərini bölüşüb.**

Mütəxəssis əsas favoritlər sırasında İspaniya millisinin adını çəkməyib. Onun sözlərinə görə, mundialın kubokunu qazanmağa əsas namizədlər Braziliya və Argentinadır: "DÇ-2022"nin favoritləri? Mən Braziliya və Argentinanı avropalılardan bir addım öndə görürəm. Neymar və Messi çox yaxşı görünür. Fransa, İspaniya, Portuqaliya, İngiltərə, Almaniya, Belçika və Xorvatiyanın da yaxşı şansları var. İspanlar? Hər zaman ümid var. Luis Enrike yaxşı komanda qurub və əla məşqçidir. O, xarakterinə görə ideal məşqçidir. Komandaya inanmaq lazımdır. Mən İspaniya millisinə nikbin baxıram".



*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Qarabağ və Şərqi Zəngəzur: yurdum, yuvam...

**Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdəki doğma kənd və şəhərlərinə qayıdan insanlar üçün ən yaxşı həyat şəraiti yaradılacaq. Çünki bu insanlar uzun illər məcburi köçkün həyatı yaşayaraq çətinliklərə dözmüş, yurd həsrəti çəkmişlər.**




Təsadüfi deyil ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nda da bu məsələ diqqət mərkəzindədir. Belə ki, həmin sənəddə fəaliyyət istiqamətlərindən biri kimi yaşayış məntəqələrinin kommunal və rabitə xidmətləri ilə təmin edilməsi müəyyənləşdirilib.

Kommunal xidmətlər dedikdə elektrik enerjisi, qaz, istilik və isti su, içməli su təchizatı, tullantı sularının axıdılması və təmizlənməsi, yağış sularının idarə olunması nəzərdə tutulur. I Dövlət Proqramı çərçivəsində Ağdam, Füzuli, Şuşa, Xocavənd, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarında inşa ediləcək 34500 mənzilin və fərdi yaşayış evinin həmısı bu kommunal, eləcə də rabitə xidmətləri ilə təmin olunacaq. Qeyd edək ki,indiyədək Cəbrayıl rayonunda olan dövlət obyektlərinin, Şuşa şəhərinin və yaxın ərazilərinin elektrik enerjisi ilə təmin olunması icra edilib . "Azərişıq" ASC tərəfindən, eləcə də Tərtər rayonu, Suqovuşan qəsəbəsi və ətraf ərazilər, Zəngilan rayonu və yaxın əraziləri elektrik enerjisi ilə təmin olunub. Elektrik təchizatı icra edilən ərazilər və obyektlər sırasında Qubadlı və Zəngilan rayonları, Xocavənd rayonunda tikintisi planlaşdırılan kompleks, Kəlbəcər rayonunda hərbi hissələr, Laçın rayonunda yerləşən dövlət əhəmiyyətli obyektlər də var.

Proqramda işğaldan azad edilmiş ərazilərin qaz təchizatı məqsədilə 2022-2026-cı illərdə geniş işlərin görülməsi, yeni paylayıcı şəbəkənin qurulması nəzərdə tutulub. Bunun üçün SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti), Energetika, İqtisadiyyat, Fövqəladə Hallar nazirlikləri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidentinin Xüsusi Nümayəndəliyi, Şuşa Şəhər Dövlət Qoruğu İdarəsi Ərazi planlaşdırma sənədlərinə uyğun olaraq layihələndirmə işlərini həyata keçirəcəklər. Şuşa, Xocavənd, Ağdam, Füzuli, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarının yaşayış məntəqələrində qazpaylayıcı şəbəkənin qurulması kommunal xidmətlər sırasında önəmli yer tutur.

Sözügedən dövrdə istilik və isti su təchizatı şəbəkələrinin qurulması vacib məsələlərdən olacaq. Bununla bağlı da planlaşdırma sənədlərinə uyğun şəkildə layihələndirmə işləri aparılacaq. Xatırladaq ki, Şuşa şəhərində müvafiq binaların isitmə və isti su ilə təmin edilməsi üçün qazanxanaların və binadaxili sistemlərin quraşdırılması artıq icra edilib. Yəni rayonda qazanxana və istilik məntəqəsi tikilib, müxtəlif təyinatlı binalarda məhəllədaxili və binadaxili istilik və isti su təchizatı sistemləri qurulub.

Proqramda eləcə də içməli su təchizatı, tullantı sularının axıdılması və təmizlənməsi, yağış sularının idarə olunması şəbəkələrinin qurulması nəzərdə tutulub. Göstərilən zaman çərçivəsində 33 yaşayış məntəqəsində müvafiq şəbəkələrin tikintisinin başa çatdırılması, ələvə 57 yaşayış məntəqəsində müvafiq şəbəkələrin layihələndirilməsi və tikintisi işlərinə başlanılması, 97 yaşayış məntəqəsində müvafiq şəbəkələrin layihələndirilməsi və tikintisi işlərinin başa çatdırılması planlaşdırılır.

Rabitə xidmətlərinin (telefon, internet, multimedia) təşkili üçün də layihələndirmə işləri həyata keçiriləcək. Şuşa şəhəri və Zəngilan rayonunun Ağalı kəndi bu xidmətlərlə artıq təmin olunublar. Şuşa və Bakı şəhərləri arasında sabit telefon rabitəsi bərpa edilib, şəhərdaxili rabitə şəbəkəsinin yenidən qurulması işlərinə başlanılıb, abunəçilər yüksəksürətli internet və telefon xidmətləri ilə təmin olunub. Zəngilan rayonunun Ağalı kəndində fərdi evlər və qeyri-əhali kateqoriyalı abunəçilər telefonla və internetlə təmin olunub.

Qarabağ və Şərqi Zəngəzurda hazırda sözügedən istiqamətlərdə planlı şəkildə genişmiqyaslı işlər gedir. Düşmən üzərində böyük qələbəmizdən cəmi iki il keçməsinə baxmayaraq, indiyədək görülmüş işlər də həcminə görə heyrət doğurur. Belə ki, indiyədək strateji obyektlərin elektriklə təchizatı üçün hava xətləri çəkilib, KTM (Komplekt Transformator Məntəqələri) quraşdırılaraq gərginlik verilib. Kəlbəcər rayonu ərazisində dövlət sərhədi elektrik enerjisi ilə təmin olunub. "Gülebird" SES-dən Laçın dəhlizinədək olan hissədə 35 kV-luq birdövrəli hava xətti bərpa edilib. Laçın dəhlizində 10 kilometr məsafədə 35 kV-luq universal ÖİN (özünüdaşıyan izolyasiyalı naqillər) kabel xətti çəkilib. Bir sıra yaşayış yerlərində ÖİN xətti çəkilib və KTM quraşdırılıb. 10 kV-luq elektrik verilişi xətti çəkilib. Hərəkül kəndində yerləşən 35/10 kV-luq yarımstansiyadan Hadrut qəsəbəsindəki 35/10 kV-luq yarımstansiyaya qədər hava xətti bərpa edilib və Hadrut qəsəbəsində yerləşən strateji obyektlər elektrik enerjisi ilə təmin olunub. Cəbrayıl rayonunun İran İslam Respublikası ilə sərhədində Sərhəd Qoşunları zastavalarının elektrik təchizatı üçün 10/0,4 kV-luq 2 ədəd güc transformatoru quraşdırılıb. 35/0,4 kV-luq 4 ədəd yarımstansiya tikilib, avadanlıqların quraşdırılması və 35 kV-luq ikidövrəli əlaqələndirici kabel xətlərinin çəkilməsi təmin edilib. Qazanxanaların, icra hakimiyyəti binasının və 5 yaşayış binasının istilik elektrik təchizatı qarşılanıb.

Görülmüş işlərə həmçinin "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına 35 kV-luq 27 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilişi də daxildir. "Hadrut"-"Qırmızı Bazar" mövcud birdövrəli hava xəttinin Hadrut qəsəbəsindən Zoğalbulaq kəndinə qədər 12,7 kilometr uzunluğunda hissəsi əsaslı təmir edilib. Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib. 35/10 kV-luq "Suqovuşan" yarımstansiyası tikilib, 110/35/10 kV-luq "Tərtər" yarımstansiyasından müasir tipli 35 kV-luq özünüdaşıyan izolyasiyalı naqillər elektrik veriliş xətti çəkilib. Strateji əhəmiyyətli obyektlər elektrik enerjisi ilə təmin olunub.

İndiyədək eləcə də beynəlxalq hava limanına 11 kilometr uzunluğunda ikidövrəli ÖİN elektrik veriliş xətti çəkilib, ərazidə transformator məntəqəsində avadanlıqlar quraşdırılıb. Ağalı kəndinin xarici elektrik təchizatı üçün Zəngilan 110/35/10 yarımstansiyasından 18 kilometr uzunluğunda ikidövrəli ÖİN elektrik veriliş xətti çəkilib. 400 kVA gücündə KTM quraşdırılıb. 13 kilometr uzunluğunda ÖİN xətti çəkilib və 1000 kVA gücündə KTM quraşdırılıb, Hadrut qəsəbəsində 35 KV-luq yarımstansiya tikilib. "Gülebird" stansiyasında 35/10 kV-luq yeni transformator quraşdırılıb. Qubadlı rayonuna 28 kilometr, Zəngilan rayonuna xəttin davamı olaraq 18 kilometr uzunluğunda elektrik verilişi xətti çəkilib.

Görüləcək işlər çoxdur. Lakin qısa müddətdə həyata keçirilən böyük quruculuq-bərpa işləri göstərir ki, nəzərdə tutulanlar da yüksək səviyyədə gerçəkləşəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi artıb

Cari ilin yanvar-oktyabr aylarında tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi 2022-ci ilin II rübü ilə müqayisədə 100,4 faiz olub.

Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, həmin dövr ərzində tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi yerüstü tikililər üzrə 100,4, yol və körpü tikintisi üzrə isə 100,3 faiz təşkil edib.

## BFB və AİB nümayəndələri arasında görüş keçirilib

Bakı Fond Birjası (BFB) və Asiya İnkişaf Bankının nümayəndələri (AİB) arasında görüş keçirilmişdir.

Görüş zamanı Bakı Fond Birjasının fəaliyyəti, kapital bazarlarının infrastrukturu, korporativ qiymətli kağızları ilə ilkin və təkrar bazarlar üzrə ticarətin təşkili və bu sahədə görüləcək işlər haqqında ətraflı müzakirələr aparılmışdır.

## 366,6 milyon dollarlıq yük daşınıb

Oktyabrda dəmir yolu nəqliyyatı ilə ümumilikdə 750 min 606 ton yük daşınıb ki, bu yüklərin də dəyəri 366,6 milyon ABŞ dolları olub.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, keçən ay dəmir yolu nəqliyyatı ilə ixrac olunan 297 min 187 ton yükün dəyəri 139,9 milyon dollar təşkil edib.

## 40 minə yaxın şəxsə peşəyönümü məsləhət xidməti göstərilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən cari ilin 10 ayında 40 minə yaxın şəxsə düzgün peşə seçimi və karyera inkişafına dəstək məqsədilə peşəyönümü məsləhət xidməti göstərilib.

Onlardan 1600 nəfəri "Alo Karyera" dəstək xidməti çərçivəsində, 38,3 minə yaxını Agentliyin Regional Məşğulluq filialları tərəfindən peşəyönümü məsləhət xidmətlərinə cəlb olunub. Həmin şəxslər karyera planlaması, düzgün ixtisas/peşə seçimi, iş axtarışı yolları, CV, istək məktubunun hazırlanması, müsahibəyə hazırlıq kimi mövzular barədə məlumatlandırılıb.

Agentliyin Mərkəzi Karyera filialı tərəfindən Bakıda və bölgələrdə vebinarlar, konfranslar, karyera sərgiləri və yarmarkalar da təşkil olunub. İşsiz şəxslər, şagirdlər, tələbələr, abituriyentlər və digər iştirakçıların qatıldığı tədbirlərdə ümumilikdə 16 minə yaxın şəxsə peşəyönümü xidməti göstərilib. Agentlik tərəfindən, eyni zamanda yeniyetmə və gənclərin müasir əmək bazarı barədə məlumatlılığının və peşələrə marağının artırılması, əmək bazarının tələblərinə uyğun peşə seçiminə dəstək məqsədilə Peşələr Festivalı keçirilib.



Ölkənin 10 rayon və şəhərini əhatə edən festival çərçivəsində 29,7 mindən çox iştirakçıya qeyd olunan istiqamətlərdə məlumatlar verilib.

## Vahid Əlaqələndirmə mərkəzlərinin xidmətlərindən 66 mindən çox şəxs yararlanıb

Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli fərmanı ilə yaradılan Vahid Əlaqələndirmə mərkəzlərində ötən dövrdə 66 132 şəxsə xidmət göstərilib.

DOST mərkəzlərində, həmçinin Gəncə şəhərində, Masallı, Ucar, Şəmkir, Qusar və Salyan rayonlarında ümumilikdə 48 rayon və şəhər üzrə şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslərə xidmət göstərən 11 Vahid Əlaqələndirmə mərkəzi fəaliyyət göstərir.

Bu mərkəzlərdə 5 mərkəzi icra hakimiyyəti (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi) və 48 yerli icra hakimiyyəti üzrə 26 xidmət "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edilir.

Həmin xidmətlərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya, müalicə, müayinə və s. üzrə xidmətlər daxildir.

**●İLƏ YEKUN VURULUR**

# Proqnozlar reallaşır

## Qeyri neft-qaz sektorunda ÜDM istehsalı 10 faizə yaxın artıb



Dövlət Statistika Komitəsinin cari ilin yanvar-oktyabr ayları üzrə makroiqtisadi göstəriciləri əks etdirən hesabatında bildirilir ki, 10 ay ərzində ölkə üzrə 111 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 5,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri neft-qaz sektorunda 9,7 faiz artmış, neft-qaz sektorunda 2,4 faiz azalmışdır.

Hesabat dövründə ÜDM-in 52,9 faizi sənaye, 7,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 5,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,1 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 3,9 faizi tikinti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitə, 14 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,5 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 11 min 32,8 manat əlavə dəyər düşmüşdür.

10 ay ərzində ölkə üzrə 73,3 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri neft-qaz sektorunda 5,6 faiz artmışdır. Sənaye məhsullarının 76,4 faizi mədənçıxarma, 19,9 faizi emal, 3,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 5,5 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,6 faiz artmışdır.

Emal sektorunda isə digər nəqliyyat vasitələrinin istehsalı 3,2 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 81,7, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 59,9, maşın və avadanlıqların istehsalı 45, elektrik avadanlıqlarının istehsalı 41,4, geyim istehsalı 37,6, mebel istehsalı 32,9, poliqrafiya məhsullarının istehsalı 24, kağız və karton istehsalı 17,2, əczaçılıq məhsullarının istehsalı 16,9, tikinti materiallarının istehsalı 14,9, hazır metal məmulatlarının istehsalı 12,9, ağacın emalı və ağacdan məmulatların istehsalı 10,5, kompüter, elektron və optik məhsulların istehsalı 10,3, qida məhsullarının istehsalı 8, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,5, metallurgiya sənayesi məhsullarının istehsalı 5,4, kimya sənayesi məhsullarının istehsalı 3,8 faiz artmışdır. Artım həmçinin qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 3,5 və 5,7 faiz.

Dövlət Statistika Komitəsinin açıqlamasına görə, ilin əvvəlindən ötən 10 ay ərzində əsas kapitala 11 milyard 774,5 milyon manat vəsait yönəldilmişdir. Bu, ötən ilin eyni dövründəkindən 8,2 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 55,9 faizi məhsul istehsalı və 37,9 faizi xidmət obyektlərinin, 6,2 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 76,8 faizi daxili sərmayələr olan vəsaitin 73,6 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna 3,9 milyard manatdan çox vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektoruna sərf olunan vəsaitin həcmi isə 7,8 milyard manatdan çox olmuşdur ki, bu da ümumi sərmayənin 8,3 faizini təşkil edir.

10 ay ərzində əsas kapitala həmçinin 2 milyard 731,2 milyon manat xarici kapital yatırılmışdır. Həmin vəsaitin 94,2 faizi Birləşmiş Krallıq, ABŞ, İsveçrə, Yaponiya, Türkiyə, Norveç, Rusiya, İran, Hindistan və Fransa investorlarına məxsus olmuşdur.

Ölkədə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda yanvar-sentyabr ayları üzrə bu göstərici 2021-ci ilin eyni dövrünə nisbətən 14,4 faiz artaraq 827,4 manat olmuşdur. Əhalinin ümumi gəlirləri isə 10 ayda 56,9 milyard manata çatmışdır ki, bu da 2021-ci ilin eyni dövrünə nisbətən nominal ifadədə 20,4 faiz çoxdur.

Hesabatda o da bildirilir ki, yanvar-oktyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 40 milyard 402,8 milyon manatlıq məhsul satılmış, 7 milyard 226,8 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Keçən ilin eyni dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,9, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 6,9 faiz artmışdır.

DSK-nin açıqladığı rəqəmlərə görə, 10 ay ərzində ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 2 milyard 199,6 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 73,9 faizindən əhali istifadə etmişdir. Yanvar-oktyabr aylarında bu xidmətlərin həcmi 15,7 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 82,5 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: cari ilin 10 ayı ərzində ölkə üzrə 176,7 milyon ton yük, 1,3 milyard nəfərdən çox sərnişin daşınmışdır ki, bu da ötən ilin eyni dövrünə nisbətən yük daşınması üzrə 12,6, sərnişin daşınması üzrə 37,4 faiz çoxdur.

İstehlak qiymətləri barədə rəqəmlərsə belədir: yanvar-oktyabr aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ümumilikdə qiymətlər 13,7, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 19,4, qeyri-ərzaq malları 7,9, əhaliyə göstərilən ödənişli qiymətlər 10,4 faiz bahalaşmışdır.

*"Azərbaycan"*

# Azərbaycanda fərdi sahibkarların 21 faizdən çoxu qadınlardır

## KOB mərkəzlərinin təlimindən 4 min qadın sahibkar yararlanıb

**"Hazırda Azərbaycanda fərdi sahibkarların 21 faizdən çoxunu qadınlar təşkil edir və iqtisadi inkişafda qadınların aktivliyi artan dinamika ilə davam edir".**

Bu barədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən "Üfüqdə yeni fürsətlər: Qadın sahibkarlara yaşıl işıq" adlı V forumda deyib. Qeyd edib ki, qadınların özünüməşğulluğa və sahibkarlıq fəaliyyətinə təşviqi, qadın sahibkarlığının inkişafına dəstək göstərilməsi KOBİA-nın fəaliyyətində prioritet istiqamətlərdəndir: "Ölkə iqtisadiyyatının inkişaf prioritetləri və milli xüsusiyyətləri nəzərə alınmaqla KOBİA tərəfindən qadın sahibkarlığının inkişafı təşviq etmək, kiçik və orta sahibkarlar arasında qadınların sayını daha da artırmaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Qadınlar biznes fəaliyyətinə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək üçün agentliyin təlim, məsləhət, beynəlxalq ixtisasartırma, maliyyə resurslarına çıxış, qrant, sərgilərdə iştirak, "kobmarket.az" ticarət portalı, daxili bazar araşdırması, "Startap" şəhadətnaməsi və sair dəstək və xidmətlərindən faydalanırlar".

Orxan Məmmədov daha sonra bildirib ki, KOB İnkişaf mərkəzləri tərəfindən bu il keçirilən təlimlərdə 4000-ə yaxın qadın sahibkar və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən qadınlar iştirak ediblər: "Agentlik tərəfindən göstərilən dəstək mexanizmlərindən qadın sahibkarlar da faydalanırlar. Belə ki, ötən müddət ərzində 5 qadın sahibkara təqdim etdikləri layihə çərçivəsində qrant, 9 qadın sahibkara 3 il müddətinə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən azad edən "Startap" şəhadətnaməsi verilib".

## Neft ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft qiymətləri ucuzlaşıb.**

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,16 dollar azalaraq 88,2 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,12 dollar ucuzlaşaraq 80,83 dollar olub.



# Vətənə qızıl medallarla döndülər

## Gənc qaliblər Zahid Kazımzadənin və Fatimə Hüseynlinin hədəfi Olimpiya mükafatıdır












Ölkəmizdə həmişə idman ənənələri olub. Bu gün isə Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir.

Belə idman növlərindən biri də kamandan oxatmadır.

Azərbaycanda bu idman növü 1969-1970-ci illərdə inkişaf etməyə başlayıb. "Məhsul", "Spartak", "Lokomotiv" və digər idman cəmiyyətlərində kamandan oxatma bölmələri açılıb.

Tanınmış idmançılarımız V.Maksimov, S.Yusifova, S.İsmayılova, N.Hüseynova, O.Saraykina və E.Hacıyev müxtəlif illərdə SSRİ kuboku, ümumittifaq və beynəlxalq yarışların qalibi və mükafatçıları olmuşlar. Hazırda isə bu ənənəni Yaylagül Ramazanova, Əhməd Hüseynov və digər gənc idmançılarımız davam etdirirlər.

Xatırladaq ki, Azərbaycan Kamandan Oxatma Federasiyası 1993-cü ildə təsis edilib. Qurum Beynəlxalq Kamandan Oxatma Federasiyaları Assosiasiyasının (FİTA) və Avropa Kamandan Oxatma Federasiyaları Assosiasiyasının (FETA) üzvüdür.

Bu günlərdə Qazaxıstanın paytaxtı Astana şəhərində kamandan oxatma üzrə beynəlxalq Qran-pri turniri keçirilib. Mötəbər yarışda iştirak edən Azərbaycanın yeniyetmə idmançıları böyük uğur əldə ediblər. Komandamızın üzvlərindən Zahid Kazımzadə və Fatimə Hüseynli şəxsi yarışlarda bütün rəqiblərini üstələyərək qızıl medala sahib olublar. Onlar həm də qarışıq komanda yarışında 1-ci yerə layiq görülüblər və vətənə 3 qızıl medalla qayıdıblar.

Dünən Zahid Kazımzadə və Fatimə Hüseynli redaksiyamızın qonağı olublar.

Cəmi bir ildir kamandan oxatma idman növü ilə məşğul olan 1 saylı Uşaq-Gənclər İdman Liseyinin 10-cu sinif şagirdi Fatimə Hüseynli artıq qısa bir müddət ərzində ölkə çempionu adını qazanıb, sentyabrda Gürcüstanın Batumi şəhərində 10 ölkənin idmançılarının iştirakı ilə keçirilən böyüklər arasında beynəlxalq turnirdə bürünc medal əldə edib və bir neçə gün bundan əvvəl Qazaxıstanın paytaxtı Astanada baş tutmuş Qran-pri yarışlarında yeniyetmələr arasında qızıl medala layiq görülüb.

Fatimənin bu cür sürətlə uğur əldə etməyinin səbəbini soruşduqda məlum oldu ki, o, 5 yaşından idman gimnastikası ilə məşğul olub. Dəfələrlə ölkə çempionatının qalibi və mükafatçısı olmuş idmançı həm də yeniyetmələr arasında milli komandanın heyətində beynəlxalq turnirlərdə iki gümüş və bir bürünc medala sahiblənibdir. Lakin dörd il öncə yarış zamanı zədələnən Fatimə keçən ildən etibarən gimnastika ilə məşğul ola bilməsə də, hazırda onun sevimli idman növü olan kamandan oxatmada yeni uğurlar qazanaraq çox perspektivli idmançı olduğunu sübuta yetirir.

Fatimənin dediyinə görə, rəfiqəsinin məsləhətilə məşqlərə qatıldığı bu idman növünün sirlərini ilk olaraq ona Natiq Fazilov öyrədib. Hazırda isə məşqçi Fuad Allahverdiyevin rəhbərliyilə ustalığını və peşəkarlığını artırır.

2023-cü ilin aprelində və iyununda keçiriləcək Dünya çempionatı və Avropa Oyunları, habelə bir neçə digər mötəbər beynəlxalq yarışa hazırlaşan Fatimə Hüseynli həmin turnirlərdə qələbə uğrunda mübarizə aparmaqla yanaşı, həm də 2024-cü ildə Fransanın paytaxtı Parisdə baş tutacaq Yay Olimpiya Oyunlarına vəsiqə əldə etmək əzmindədir.

Milli komandanın baş məşqçisi Natiq Fazilov da Fatimə Hüseynlinin və Zahid Kazımzadənin çox perspektivli idmançılar olduğunu bildirir və onların gələcəkdə Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında, digər beynəlxalq turnirlərdə böyük uğurlar qazanaraq Azərbaycanın bayrağını yüksəklərə qaldıracaqlarına inanır.

Qazaxıstan Qran-prisinin digər qalibi Zahid Kazımzadə də cəmi 1,5 ildir ki, kamandan oxatma idman növü ilə məşğul olur. O, Zəngi liseyinin 8-ci sinif şagirdidir. Zahidin də ilk məşqçisi Natiq Fazilov olub. Bu idman növünün sirlərini yaxşı mənimsəyən yeniyetmə artıq Bakı və Azərbaycan çempionu olmağa macal tapıb.

Bundan əlavə, Zahid bu il Rumıniyada və Gürcüstanda beynəlxalq yarışlarda qüvvəsini sınaqdan çıxarandan sonra bu günlərdə üçüncü cəhddən Astanada 9 ölkənin 16 təmsilçisi arasında ən yüksək nəticə göstərərək qalib olub. O, Dünya çempionatına və Olimpiya oyunlarına vəsiqə qazanmaq üçün gələn il İsveçrədə, Sloveniyada və İrlandiyada keçiriləcək Avropa çempionatlarında və Avropa kuboku oyunlarında iştirak etmək üçün əzmlə hazırlaşır. Zahidin dediyinə görə, bu idman növünü seçməsində onun uşaqlıq yaşlarından filmlərdə izlədiyi əfsanəvi Robin Qud və Tozkoparan İskəndər kimi əfsanəvi personajlar olub.

Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevin tədbirlərin birində dediyi kimi, ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır: "Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq. Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır".

Görüşümüzün sonunda yaxın gələcəyimizin məşhur idmançıları olacaqlarına şübhə etmədiyimiz Fatimə Hüseynlinin və Zahid Kazımzadənin ən böyük arzuları ilə də maraqlandıq. Hər ikisi düşünmədən bildirdi ki, ən ümdə arzuları Olimpiya çempionu olub dövlətimizin himnini səsləndirmək, bayrağını yüksəltmək və Azərbaycan xalqını sevindirməkdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Şəffaf, ədalətli və məsuliyyətli

Bu meyarları rəhbər tutan "Azərlotereya" ASC-nin yenilənmiş fəaliyyəti beynəlxalq səviyyədə də təqdir olunur. Fəaliyyət sferasında beynəlxalq standartların tətbiqinə önəm verən "Azərlotereya"nın qısa müddət ərzində nüfuzlu Dünya Lotereya Assosiasiyasına (WLA) üzv olması bu baxımdan xüsusi diqqət çəkir. 80 ölkə üzrə 150-dən çox rəsmi lotereya və idman mərc oyunları operatorunu özündə birləşdirən təşkilatın ümumi məqsədi əyləncəli şans oyunlarının məsuliyyətli satışını həyata keçirməkdir.

azərlotereya

Lotereyaların təşkilində ən son texnoloji yenilikləri həyata keçirən, oyun proqramlaşdırılması, məhsulun idarə edilməsində şəffaflığın qorunması və təhlükəsizlik kimi məsələlərə ciddi yanaşan "Azərlotereya" ASC-nin fəaliyyəti assosiasiyanın meyarlarına cavab verdiyi üçün üzvlüyə layiq görülüb.

Bütün sahələrdə qanunçuluğun və şəffaflığın təmin olunması Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritetlərindən biridir. Təsadüfi deyil ki, son illədə həyata keçirilən islahatların bir məqsədi də şəffaflığın, ədalətin və qanunçuluğun qorunması olmuşdur.

Nəticə etibarilə bütün bunlar respublikamızın inkişaf strategiyasında qarşıya qoyulan bütün vəzifələrin uğurla yerinə yetirilməsi ilə müşayiət olunur. Azərbaycan hökuməti dövlət şirkətlərinin də fəaliyyətinin yeni formatda qurulması, bu sahədə idarəçiliyin effektivliyinin artırılmasını yeni dövr üçün iqtisadi siyasətin prioritet istiqamətlərindən biri elan edib.

"Azərlotereya" ASC-nin özəl sektorun idarəçiliyinə verilməsi dövlət şirkətlərinin fəaliyyətinin gücləndirilməsi istiqamətində yeni bir yanaşma oldu. 2001-ci ildə yaradılmış "Azərlotereya" ASC tirajlı lotereyaların təşkili və keçirilməsi sahəsində fəaliyyət göstərən dövlət müəssisəsidir. Şirkət hər zaman mənfəətlə çalışan dövlət strukturlarından biri olub. Azərbaycanda lotereya oyunlarına maraq daim yüksəkdir. Bu baxımdan cəmiyyətin fəaliyyətinin təkmilləşdirilməsi zərurəti artıq zamanın tələbi idi.

Ötən dövrün reallıqları göstərir ki, "Azərlotereya"nın xarici investor kimi Türkiyənin "Demirören Holding" şirkətinin idarəçiliyinə verilməsi ölkəmizdə keçirilən şans oyunlarının məzmununu əsaslı şəkildə dəyişib, qurumda qabaqcıl korporativ idarəetmə prinsiplərinin tətbiq olunmasını sürətləndirib, iqtisadi səmərəni, həmçinin Azərbaycanda şans oyunlarının populyarlığını əhəmiyyətli şəkildə artırıb.

"Demirören Holding" şirkətinin "Azərlotereya"nın idarəçiliyinə cəlb edilməsi həm də ölkəmizdə şans oyunları sektorunu inkişaf etdirmək üçün investisiya və yeni texnologiya cəlb etməyə imkan yaradıb. Azərbaycan hökumətinin bu addımı dünya təcrübəsində mövcud olan ən yaxşı modellərin, oyun sistemlərinin, satış, cəlbetmə və stimullaşdırma mexanizmlərinin ölkəmizdə tətbiqinə imkan verib.

"Azərlotereya" ASC-nin bu ilin yayında Dünya Lotereya Assosiasiyasına üzv qəbul olunması da şirkətin lotereyaların təşkilində ən son texnoloji yenilikləri həyata keçirməsinin, oyun proqramlaşdırılması, məhsulun idarə edilməsində şəffaflığın qorunması və təhlükəsizlik kimi məsələlərə ciddi yanaşmasının nəticəsidir. Şirkətin fəaliyyəti assosiasiyanın meyarlarına cavab verdiyi üçün üzvlüyə layiq görülüb. Təsadüfü deyil ki, şirkətin ani lotereya biletlərinin hazırlanmasında qabaqcıl texnologiyaya əsaslanan "Scientific Games" şirkəti birbaşa iştirak edir. Bundan əlavə, tirajlı lotereya oyunlarının keçirilməsində bu sahədə dünyanın qabaqcıl şirkətlərindən olan "Akanis Technologies" şirkətindən alınmış müasir avadanlıqlardan istifadə edilir.

Qeyd edək ki, Dünya Lotereya Assosiasiyası təxminən 80 ölkə üzrə 150-dən çox rəsmi lotereya və idman mərc oyunları operatorunun qlobal peşəkar birliyidir. Assosiasiya üzvlərinin ümumi məqsədi əyləncəli şans oyunlarının məsuliyyətli satışını həyata keçirməkdir. Bu baxımdan "Azərlotereya" ASC beynəlxalq təcrübəyə əsaslanaraq şans oyunlarının təşkilində xoş və əyləncəli xidmətlər təqdim edərkən hər zaman "Məsuliyyətlə oyna!" prinsipinə sadiq qalır.

Eyni zamanda Avropa Lotereyalar və Toto Assosiasiyasına (EL) üzv olan "Azərlotereya" ASC "Məsuliyyətli oyun" konsepsiyasının tətbiqini genişləndirir. "Məsuliyyətli Oyun" standartı ilə bağlı "Azərlotereya" ASC-nin Müşahidə Şurasının qərarına əsasən, "Azərlotereya" ASC-nin İdarə Heyəti Avropa Lotereyaları və Toto Assosiasiyasının "Məsuliyyətli Oyun" standartlarının "Azərlotereya" ASC-nin bütün fəaliyyət istiqamətləri üzrə tətbiq edilməsinə və lazımi adaptasiyaların icra edilməsinə dair strateji hədəflərin icrasına görə məsuliyyət daşıyır. Bu məqsədlə lotereya və idman mərc oyunları həvəskarları üçün *2070 "Məsuliyyətlə oyna!" dəstək xəttini istifadəyə verən şirkət bu istiqamətdə görülən işlərin davamı olaraq Psixologiya Elmi-Tədqiqat İnstitutu ilə memorandum imzalayıb. "Azərlotereya"nın Psixologiya Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlığına əsasən, *2070 dəstək xəttinə müraciət edən oyunçular instituta yönləndiriləcəklər. Həmin şəxslər birbaşa müraciət etdikdən sonra onlara müvafiq maarifləndirmə və dəstək xidməti təmin ediləcək. İnstitut tərəfindən oyunçuların şəxsi məlumatlarının məxfi saxlanılmasına Dünya Lotereya Assosiasiyasının informasiya təhlükəsizliyi standartının öhdəliyinə əsasən tam təminat verilir.

Ümumilikdə şəffaflıq, ədalətlilik və məsuliyyətlilik "Azərlotereya"nın fəaliyyətinin əsas prinsipləri kimi diqqəti çəkir. Bu meyarları rəhbər tutan "Azərlotereya"nın yenilənmiş fəaliyyəti beynəlxalq səviyyədə də təqdir olunur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

## Şamaxı rayonunun 2 kəndinin elektrik şəbəkəsi yenidən qurulub

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, layihə çərçivəsində Şamaxının Zarat Xeybəri və Ərçiman kəndlərinin elektrik şəbəkəsi yenidən qurulub.

Zarat Xeybəri kəndi dəniz səviyyəsindən 2430 metr hündürlükdə, rayon mərkəzindən 45 kilometr kənarda, çətin relyefli ərazidə yerləşir. Kəndin enerji təsərrüfatı 70 ildən çoxdur istismarda idi.

Yenidənqurma işləri nəticəsində Zarat Xeybəri kəndində 2 komplekt transformator məntəqəsi quraşdırılıb. 5 kilometrə yaxın 10 kV-luq, 6 kilometrə yaxın 0,4 kV-luq elektrik xətti tam yenilənib.

Ərçiman kəndində də 10 və 0,4 kV-luq elektrik xətləri ləğv edilərək 20 kilometrdən artıq yeni kabel xətti çəkilib. Kənddə 3 ədəd komplekt transformator məntəqəsi quraşdırılıb.

Hər iki kənddə abonentlərin sayğacları yenisi ilə əvəzlənib.

Xatırladaq ki, investisiya layihəsi regionlarda 100-dən çox kəndi əhatə edir.

# "Saxta" müharibə veteranı saxlanıldı

**Noyabrın 23-də paytaxtda Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən hərbi qulluqçulara verilən orden və medalları, hərbi geyimi, fərqlənmə nişanlarını qanunsuz əldə etməklə görüntü yaradan şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin yaydığı məlumata əsasən, döyüşlərdə iştirak etməyən, 2-ci qrup əlil, 1986-cı il təvəllüdlü şəxs barəsində qanunamüvafiq tədbirlərin görülməsi təmin olunub. Ondan üzərində daşıdığı orden və medallar, hərbi geyim götürülüb.

***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi tərəfindən yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 100 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma prosedurunun qalibi "Az-Tex-İmport" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi ilə "Az-Tex-İmport" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova Bakı Dövlət Universitetinin rektoru, dosent Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdiri Sadiq Əliyevə anası

**AFİLƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini, general-leytenant Mayıl Şahverdiyev Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6507
Sifariş 3313
Qiyməti 40 qəpik